# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 31 (3355) | Çərşənbə axşamı / 30-31 mart 2021-ci il | Qiyməti 40 qəpik


# Ermənilərin sərhəd “dərdi”

**Hazırda 44 günlük Vətən müharibəsində aldığı ağır məğlubiyyətin şok təsirindən hələ də ayıla bilməyən hərarətli günlərini yaşayan Ermənistanda ən çox müzakirə edilən məsələlərdən biri, bəlkə də birincisi Azərbaycanla dövlət sərhədlərinin müəyyənləşdirilməsi prosesidir. Demək olar, hər həftə bu proseslə bağlı məğlub ölkədə yeni iddialar ortaya atılır, hansısa kəndin, yolun Azərbaycanın nəzarətinə keçəcəyi ilə bağlı bəyanatlar verilir. Müxalif qüvvələr baş nazir Nikol Paşinyanı Zəngəzurla bağlı Azərbaycanla gizli razılaşma əldə edildiyinə, hansısa açıqlanmayan sazişin imzalandığına dair ittihamlarla da üz-üzə qoyub.**




## Azərbaycan-Ermənistan sərhədi hansı sənədlər əsasında müəyyənləşir?

Məsələ erməni cəmiyyətində o dərəcədə kəskin qarşılanır ki, Paşinyan hökuməti proseslə bağlı ardıcıl bəyanatlar vermək məcburiyyətində qalıb. Ermənistan Baş nazirinin müavini Tiqran Avinyan bir neçə gün əvvəl bəyan edib ki, Azərbaycan və Ermənistan sərhədində sərhəd postları 1970-ci illərin sovet hərbi xəritələri əsasında müəyyən edilib.

“Sərhəd postlarının yerləşdirilməsi 1975-1976-cı illərin hərbi xəritələrinin məntiqi çərçivəsində həyata keçirilir. Bu, sərhədlərin son delimitasiyası və demarkasiyası üçün müvəqqəti bir yerləşdirmədir. Bunun üçün isə ikitərəfli münasibətlər olmalıdır”, - Avinyan “Azadlıq” radiostansiyasının erməni xidmətinə müsahibəsində deyib. Onun sözlərinə görə, sərhədlərin delimitasiyası və demarkasiyası prosesi uzunmüddətli prosesdir. “Biz bu prosesi Gürcüstanla indiyə qədər başa çatdırmamışıq. Ancaq bu proses gec-tez bütün qonşularımızla getməlidir”, - Avinyan qeyd edib.

10 noyabr üçtərəfli razılaşmasından sonra, Azərbaycanla Ermənistanın dövlət sərhədlərinin hansı xəritələr əsasında müəyyənləşdirilməsini üç ölkənin-Rusiya, Ermənistan və Azərbaycanın güc strukturları müəyyən edib. Bunu isə Ermənistan XİN-in mətbuat katibi Anna Nağdalyan Zəngilan-Qubadlı istiqamətində sərhədlərin niyə məhz 1975-1976-cı illərə aid sovet hərbi xəritələri əsasında müəyyən edildiyinə dair suala cavab verərkən bildirib. O deyib ki, XİN prosesdə iştirak etmirdi.

Xatırladaq ki, sərhədlərin müəyyən edilməsi nəticəsində Gorus və Qafanı birləşdirən avtomobil yolunun, eləcə də Şurnux kəndinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib. Hələlik ermənilərə bu yoldan maneəsiz istifadəyə imkan yaradılıb, amma onlar hər dəfə “Azərbaycana xoş gəlmisiniz!” sözləri yazılmış nəhəng plakatın qarşısından keçib gedirlər.

Məlum açıqlamalardan sonra artıq indiyədək bizim, Azərbaycan cəmiyyəti üçün də maraqlı olan bir sıra məqamlara aydınlıq gətirilib. Qeyd edək ki, bu vaxta qədər erməni ekspertləri sərhədlərin müəyyənləşdirilməsi prosesi ilə bağlı, az qala, 100 illik xəritələrə istinad edilməsinin vacibliyini önə çəkərək, işğalçılıq siyasətinin müəyyən ərazilərdə davam etdirilməsinin vacibliyini bəyan edirdilər. Guya həmin xəritələrdə ermənilərin ”qədim yaşayış” yerləri daha dəqiq və aydın göstərilib. Hətta bu məsələ ilə bağlı Rusiya hərbçilərinin bölgəyə yeridilməsini tələb edənlər də vardı.

Həqiqət budur ki, tarixi Azərbaycan torpaqlarında - Zəngəzurda, Göyçə mahalında, İrəvanda havadarlarının dəstəyi ilə özlərinə dövlət yaratmağa nail olan mənfur ermənilər aldıqları ağır məğlubiyyətdən dərs çıxarmağa tələsmirlər. Müəyyən siyasi dairələr hələ də Kəlbəcərin qızıl, Dağlıq qarabağın zəngin tarixi mədəni irsi, Qazaxın sərhəd kəndlərinə göz dikməklə nəyəsə nail olacaqlarını düşünürlər.

Bu arada, Ermənistan baş naziri yenidən Rusiyaya səfərə hazırlaşır. Erməni mətbuatının yazdığına görə, Putinlə görüşəcək Paşinyanın yardım istəyəcəyi məsələlərdən biri də məhz sərşhədlərlə bağlıdır. İnformasiyalar səfərin 7-8 apreldə baş tutacağı yöndədir.

Yerli medianın yazdığına görə, Paşinyan Putindən həm də Ermənistanın “hərbi əsir” adlandırdığı Bakıdakı erməni terrorçuların seçki ərəfəsində qaytarılmasına kömək istəyəcək. Bakının şərtləri qəbul ediləcəyi təqdirdə bu məsələyə isti münasibət bəsləyəcəyi gözləniləndir. Əsas şərt isə budur: erməni hərbi birləşmələrinin Qarabağdan tamamilə çıxarılması.

Bu, 10 Noyabr razılaşmasının 4-cü maddəsində əksini tapır. Bakının əlindəki “kozır”ı təkcə bu məsələyə görə tamamilə çıxaracağı inandırıcı deyil, çünki bu maddə razılaşmada mövcuddur və yerinə yetirilməlidir. Bu baxımdan, əlavə şərtlər irəli sürülə bilər: Naxçıvanın Kərki kəndi və Qazağın 7 kəndinin boşaldılması.

Burada əsas çətinlik Kərki kəndi ilə bağlı görünür. Ermənistan tərkibində anklav olan kəndin azad edilməsi üçün dəhlizə ehtiyac var. Qazağın 7 kəndinin qaytarılmasının kommunikasiyanın açılması prosesinə paralel həyata keçiriləcəyi gözlənilir: Bakı-Qazax-İcevan yolunun açılması üçün öncə bu istiqamətdə sərhədin demarkasiyası, yolun üzərində yerləşən ərazinin taleyinin müəyyənləşdirilməsi lazımdır. Göründüyü kimi, hələlik proseslər ilkin mərhələdir. Sərhədlərin konkret hansı ərazilər üzrə müəyyənləşəcəyi, Azərbaycanın mövqelərinin daha da irəli çəkilib-çəkilməyəcəyi ilə bağlı məqamlara isə qarşıdakı isti aylarda tam aydınlıq gətiriləcək.

### Yeri gəlmişkən...



***“Cənubi Qafqaz” Politoloqlar Klubunun rəhbəri İlqar Vəlizadə alman coğrafiyaçılarının 1881-ci ildə tərtib etdiyi xəritəni paylaşıb. Bu barədə yerli mətbuata açıqlamasında İ.Vəlizadə qeyd edib ki, sözügedən xəritə XIX əsrdə Qafqazın milli tərkibini əks etdirir. Xəritədə azərbaycanlıların həmin dövrdə yaşadıqları sərhədlər aydın göstərilib. “Xüsusilə Şuşa şəhəri azərbaycanlıların yaşadığı regionda göstərilib.***

Bundan başqa, Zəngəzurun xeyli hissəsi, Göyçə gölü ətrafındakı rayonlar, Ağrı dağ vadisinin bütün cənub hissəsi, o cümlədən İrəvanda azərbaycanlıların məskunlaşmasını görə bilərik”, - deyə Vəlizadə bildirib. Maraqlıdır ki, müxtəlif etnos nümayəndələrinin yaşayış yerlərini göstərən köhnə xəritələrin əksəriyyəti xarici alimlər tərəfindən tərtib olunub ki, bu da onların qərəzsizliyini təsdiq edir.

*Azad Əliyev*

MÜSAHİB

# “31 Mart soyqırımının ağır nəticələri oldu”

***Azərbaycanın son 200 illik tarixinə faciələr, soyqırımlar, müsibətlərlə dolu səhifələr yazılıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında ermənilərin törətdiyi soqırımlar oldu. 1918-ci ilin Mart soyqırımları öz amansızlığına və miqyasına görə tək Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Ermənilərin azərbaycanlılara qarşı soyqırımları XX əsrin sonlarında bir daha təkrarlandı. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi.***



**Musa Qasımlı,**
millət vəkili, AMEA-nın müxbir üzvü, tarixçi-alim, professor

***Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi***

Səh. 3

MÜSAHİB



**Cümşüd Nuriyev,**
siyasi elmlər doktoru, politoloq

- Ermənilərin ağlı olsa, Paşinyanın dediyi ilə oturub-durar...
- Budəfəki seçki Paşinyanın tam qələbəsi ilə nəticələnəcək...
- Ermənilərin əksəriyyəti üçün Qarabağ maraqlı deyil...

Səh. 2

GÜNÜN FOTOSU...



**Hərbçilərimiz Türkiyədə alpinizm təlimi keçir...**

GÜNÜN SİTATI

*“Soyqırımı, müharibə və insanlıq əleyhinə cinayətlər törədən şəxslərin, beynəlxalq cinayətlərin təqibi üçün iki pilləli sistem mövcuddur. Ən arzuolunan variant ondan ibarətdir ki, bu cinayətləri törədən şəxslər həbs edilib, Azərbaycana ekstradisiya edilsin”*



**Nizami Səfərov,**
Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü

KARİKATURA



**Tapılmayan minalar - hər an ölüm təhlükəsi...**

# Qalib ölkə ittiham olunmur

**Fəzail İbrahimli,**
Milli Məclisin sədr müavini

Ermənistanın işğalla bağlı sözləri ölmüş adam haqqında balladaya bənzəyir. Səh. 6

STATİSTİKA




**■ 2021-ci ilin martın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin həcmi 917,5 mln. manat təşkil edib ki, bu göstərici son bir ayda 1,9% artıb.**

Ötən ilin eyni dövrü ilə müqayisədə isə bu göstərici 29,3% azalıb. Qeyd edək ki, martın 1-nə problemli kreditlərin cəmi kreditlərdə payı 6,3% təşkil edib. Bu, ötən ayla müqayisədə 0,1 faiz bəndi çox, illik isə 2,1 faiz bəndi azdır.



Səh. 4

# Kilsələri biz yox, ermənilər dağıdır - Faktlar danışır

## Müsahib

**Azərbaycanın son 200 illik tarixinə faciələr, soyqırımlar, müsibətlərlə dolu səhifələr yazılıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında ermənilərin törətdiyi soqırımlar oldu. 1918-ci ilin Mart soyqırımları öz amansızlığına və miqyasına görə tək Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Ermənilərin azərbaycanlılara qarşı soyqırımları XX əsrin sonlarında bir daha təkrarlandı. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi. Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpədən səhnələri üzə çıxır. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən millət vəkili, AMEA-nın müxbir üzvü, tarixçi-alim, professor Musa Qasımlı maraqlı məsələlərə diqqət çəkib.**

# "31 Mart soyqırımının ağır nəticələri oldu"



**Musa Qasımlı,**
millət vəkili, AMEA-nın müxbir üzvü, tarixçi-alim, professor

***- Musa müəllim, 1918-ci il 31 mart soyqırımı Azərbaycana qarşı aparılan hansı məkrli siyasətin nəticəsi idi?***

- Birinci dünya müharibəsinin sonlarına yaxın, 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik dəstələri birlikdə azərbaycanlı əhalini kütləvi qırğınlara, soyqırımına məruz qoydular. Şərqi Anadoluda mülki türk, müsəlman əhaliyə qarşı törətdikləri qırğınlar üçün cəzasız qalmayacaqlarından qorxan erməni-daşnak dəstələri rus Qafqaz cəbhəsi dağıldıqdan sonra ordu hissələri ilə birlikdə Cənubi Qafqaza gəldilər. Bu zaman anarxiyanın hökm sürdüyü regionda Müvəqqəti hökumətin orqanları, sovetlər və milli şuralar fəaliyyət göstərirdilər.

Qafqaz cəbhəsindən qayıdaraq Bakıdan keçib Rusiyaya getməli olan rus əsgərləri yolboyu Azərbaycan kəndlərini talan edir, aclıq və səfalət içərisində olduqlarından Bakı Sovetinin xidmətində qalmağı vətənə dönməkdən üstün tuturdular. Ordu silah və sursatını ermənilərə və Bakı bolşeviklərinə vermişdi.

Kütləvi qırğınların, soyqırımlarının coğrafiyası geniş olub, 1917-ci ilin payızından etibarən Cənubi Qafqazda - tarixi Azərbaycan torpağı olan İrəvan quberniyasını-indiki Ermənistan Respublikası ərazisini, Cənubi Azərbaycanı, Tiflis quberniyasının Borçalı qəzasını və indiki Azərbaycan Respublikası ərazisini əhatə edirdi.

Erməni silahlı qüvvələri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı törədilən kütləvi qırğınların zirvə nöqtəsi 1918-ci ilin martında oldu. Martın 30-da axşamüstü S. Şaumyan başda olmaqla Bakı Soveti və erməni-daşnak dəstələri tərəfindən dinc türk və müsəlman əhaliyə qarşı soyqırımına başlandı.

***- Soyqırımın törədilməsi kimə və nəyə lazım idi? Bu barədə nələri söyləmək olar?***

- Soyqırımın törədilməsinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, hələ I Pyotr zamanından başlayaraq, çarizm Xəzər dənizinin şimal sahillərini, həmçinin Bakını işğal edib öz tərkibinə daxil etmək üçün guya Bakıda Azərbaycanın digər yerlərindən fərqli mədəniyyət olduğunu bildirirdi. "Bakı və Azərbaycan" ifadələri də məqsədli şəkildə dövriyyəyə buraxılmışdı. İsti dənizlərə çıxmaq üçün apardığı işğalçı müharibələr nəticəsində Azərbaycanı bölüşdürdükdən sonra, Cənubi Qafqaza erməniləri yerləşdirməklə çarizm təkcə demoqrafik vəziyyəti dəyişdirmədi, eyni zamanda onları Şərq siyasətində bir vasitəyə çevirdi. Bu siyasəti çarizm devrildikdən sonra qurulan Müvəqqəti hökumət, ondan sonra hakimiyyətə gələn bolşeviklər də davam etdirdilər.

1917-ci ilin noyabrında Bakıda Stepan Şaumyan başda olmaqla azərbaycanlıların əleyhinə olan sovet hakimiyyəti quruldu. Lenin həmin ilin dekabrında Şaumyanı Qafqazda xüsusi səlahiyyətli komissar təyin etdi.

İqtisadi baxımdan Bakı bolşevik Rusiyası üçün böyük əhəmiyyət kəsb edirdi. Heç əbəs deyildir ki, 1918-ci il mart ayının ikinci yarısında Lenin ABŞ-ın Qırmızı Xaç nümayəndəliyinin rəhbəri polkovnik R. Robinsonun "Rusiya Sovet Respublikası üçün Bakının iqtisadi əhəmiyyəti nədədir" sualına "Bu - neft, işıq və enerjidir", - deyə cavab vermişdi.

Bakıya yiyələnmək Xəzər dənizinə, Şimali Qafqaza və "dünyanın ürəyi" olan Avrasiyaya gedən yola nəzarət etmək imkanı verərdi. Dünyanın ürəyinə gedən yol Bakıdan, Azərbaycandan keçirdi.

Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi. Bu zaman azərbaycanlılar əvvəlcə muxtariyyət, sonda isə müstəqillik uğrunda mübarizə aparırdılar.

Soyqırımının törədilməsinin digər bir səbəbi əhalisi əsasən türk və müsəlmanlardan ibarət olan Cənubi Qafqaza, xüsusən Bakıya Osmanlı ordusunun buraxılmaması üçün Bakı və Bakı quberniyasını yerli, aborigen əhalidən təmizləmək idi. Bu zaman Cənubi Qafqazda yaşayan təqribən 6 milyon nəfər əhalinin 3 milyonu türk, müsəlman idi.

Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdı. Bakıda və onun ətrafında azərbaycanlıların silahlı qüvvəsi demək olar ki, mövcud deyildi. Bunun da başlıca səbəbi çarizmin türk, müsəlman olduqları üçün azərbaycanlıların hərbi xidmətə çağırmaması ilə bağlı idi.

***- Musa müəllim, tarixdə soyqırımın həyata keçirilməsi bəhanəsi və üsulları dedikdə, daha çox hansı faktların üzərində dayanılır?***

- Şaumyan erməniləri və bolşevikləri, xüsusən Xəzər hərbi dəniz donanmasının matroslarını müsəlmanlara qarşı soyqırıma təhrik edirdi. Hücum üçün bir bəhanə lazım idi. Belə bir bəhanə müsəlman diviziyasının Lənkəranda həlak olan silah yoldaşları, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsini "Evelina" gəmisi ilə Bakıya gətirən bir qrup zabit və əsgərin Bakı Sovetinin hərbçiləri tərəfindən tərk-silah edilməsi oldu.

Müsəlman diviziyasının əsgər və zabitləri silahların geri qaytarılmasını tələb etsə də, nəticəsi olmadı. Şaumyanla aparılan danışıqlar da uğursuz olduqdan sonra xalq küçələrə çıxıb silahların qaytarılmasını tələb etdi. Sosial dayağı olmayan bolşevik hökumətinin rəhbəri S. Şaumyan azərbaycanlılara divan tutmaq haqqında əmr verdi.

Martın 30-da axşam saat 5-də Bakıda ilk atəş açıldı. Qırğın başlananadək özlərinin bitərəfliyini elan etmiş Daşnaksütyun və Erməni Milli Şurası, o cümlədən erməni kilsəsi Bakı Sovetini müdafiə etdi. Nəinki silahlı erməni əsgərləri, habelə erməni ziyalıları da Bakı Soveti tərəfindən döyüşə qatıldılar.

S. Şaumyan bu hadisə ilə bağlı olaraq yazırdı ki, bizim süvari dəstəyə ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhəboyu hücuma keçdik. Bizim 6 min nəfərə qədər silahlı qüvvəmiz var idi. Həmçinin daşnaksütyunun 3-4 minə qədər milli hissələri var idi. Onlar da bizim sərəncamımızda idi. Daşnaksütyunun iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan yayınmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik, çünki əgər onlar Bakıda qələbə qazansaydılar, şəhər Azərbaycanın paytaxtı elan ediləcəkdi.

Soyqırımı xüsusi qəddarlıqla həyata keçirildi. Şəhər yerdən və havadan bombardman edildi. Dinc azərbaycanlı əhali diri-diri su və neft quyularına, yanar təndirlərə atılır, hamilə qadınların qarınları süngü ilə deşilir, körpə uşaqlar divarlara mıxlanır, qadınlar hörüklərilə bir-birinə bağlanaraq küçələrdə çılpaq gəzdirilirdi. Öldürmək üçün "türk, müsəlman" olmaq kifayət edirdi. Mart soyqırımının şahidi olan Azərbaycan tarixçisi R.İsmayılov yazırdı: "İş o yerə çatmışdı ki, daşnaklar "biz, bolşevik, sosialist bilmərik, müsəlmansan, kifayətdir", - deyə hətta müsəlman sosialistlərini belə qırdılar...".

Qüvvələr bərabər olmadığı üçün martın 31-də azərbaycanlılar döyüşü dayandırmağa məcbur oldular. Buna baxmayaraq, azərbaycanlıların öldürülməsi davam etdirildi. Qırğınlar yalnız aprelin 2-də dayandırıldı.

***- Mart soyqırımı faktı beynəlxalq miqyasda necə qəbul olundu?***

- Bakıda törədilən soyqırımının ağır nəticələri oldu. Regiona səfər edən ABŞ-ın Harbord missiyasının hesabatında yazılırdı ki, ermənilər 1918-ci ilin martında Bakıda 2 min azərbaycanlını öldürdülər.

İndiana polisdən olan amerikalı alim Leonard Ramsden Hartill yazır ki, ermənilər Bakıda 25 min müsəlmanı qətlə yetirdilər. Mart qırğınından bəhs edən ABŞ tarixçiləri Boqdan Nahoylo və Vinter Svoboda yazırlar ki, 20 min döyüşçünün iştirak etdiyi bu toqquşma Bakıda 3 min nəfərin həyatına son qoymaqla Sovetin qələbəsi ilə nəticələndi. ABŞ tədqiqatçıları C.Makkarti və K.Makkarti 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlman öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını yazırlar.

Böyük Britaniya nümayəndələrinin 1918-ci il aprelin 9-da Bakıdan göndərdikləri teleqramda yazılırdı ki, ermənilər bolşeviklərlə birləşərək özlərinə irqi düşmən hesab etdikləri azərbaycanlılara qarşı qırğınlar törətdilər. İngilis mənbələrində yazılır ki, mart ayında Bakıda müsəlman əhalinin dörddə biri öldürüldü. Həmin dövrün statistik məlumatlarından aydın olur ki, bu zaman Bakıda təqribən 280-300 min nəfər əhali yaşayırdı.

Onun təqribən 80-100 min nəfəri azərbaycanlı, digərləri isə çarizmin müstəmləkə siyasəti nəticəsində şəhərə yerləşdirilənlər idi. Deməli, 80-100 min nəfər azərbaycanlı əhalinin dörddə biri 20-25 min nəfər edir. Bu rəqəm bəzi amerikan mənbələrində yazılanlar ilə eyniyyət təşkil edir.

***- Bu barədə Azərbaycan mənbələrində nə yazılır?***

- Müxtəlif siyasi cərəyanların maraqlarını əks etdirən Azərbaycan mənbələrində də öldürülənlər barədə çoxlu məlumat vardır. Məsələn, partiya mənsubiyyəti baxımından bolşevik olan N.Nərimanov 1918-ci il mayın 23-də çap olunmuş "Vətəndaş müharibəsinin milli rəng almaması üçün nə etmək lazımdır" adlı məqaləsində aşağıdakıları etiraf edirdi: "Fanatizmdən uzaq olan hər bir şəxsə məlumdur ki, Zaqafqaziyada gedən vətəndaş müharibəsində 99 faiz bir millətin nümayəndələri qırılır. İrəvan quberniyası, Lənkəran qəzası, Quba, Şamaxı bölgələri mənim dediklərimi tamamilə təsdiq edir".

Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Bakıda ermənilər mart hadisələri zamanı dinc müsəlman əhalini siyasi mənsubiyyətə fərq qoymadan kütləvi qırmışlar. Digər mənbələrə əsasən, martda yalnız Bakıda 10, 12 və 15 mindən artıq azərbaycanlının öldürülmüşdür.

Kütləvi qırğınlar yalnız Bakı ilə məhdudlaşmadı. Azərbaycanın və Cənubi Qafqazın digər yerlərində də azərbaycanlılara qarşı qırğınlar törədildi. ABŞ kəşfiyyat mənbələrinə görə, Cənubi Qafqazda qırğınlar zamanı 60 min Azərbaycan türkü qaçqına çevrildi və 420 müsəlman kəndi dağıdılıb.

***- Soyqırımını törədənlər istəklərinə nail ola bildilərmi?***

- Erməni-daşnakları və bolşevikləri istəklərinə nail ola, Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Bu hadisələr Azərbaycan xalqının müstəqilliyinin elan edilməsini ləngitsə də, istiqlal mübarizəsini dayandıra bilmədi.

Mayın 28-də Azərbaycan xalqı bütün müsəlman Şərqində dəfə olaraq respublika idarə üsulunu qurdu. Respublika məfkurəsini müsəlman Şərqinə məhz Azərbaycan xalqı gətirdi, müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmaq yolunu, nümunəsini göstərdi, onların yoluna çıraq tutdu. Bakı sentyabrın 15-də azad edildi. Azərbaycan hökuməti tarixi şəhərimiz olan Bakıya köçdü. Azərbaycan nefti yadelli qüvvələrin əlindən alındı. Azərbaycan xalqı taleyinin və torpağının sahibi oldu.

***- Erməni əli ilə Azərbaycana qarşı həyata keçirilən qətliamlar, soyqırımlar, bizə qarşı edilən haqsızlıqlar dünya ictimaiyyətinə necə təqdim olundu?***

- Cümhuriyyət hökuməti bu hadisələrin təhqiqi məqsədilə 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiyada çalışanlar əsasən ruslar, yəhudilər və digər millətlərin nümayəndələri mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı və vəsait ayrıldı.

31 mart tarixi iki dəfə - 1919 və 1920-ci illərdə Cümhuriyyət hökuməti tərəfindən ümummilli matəm günü kimi qeyd edildi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Cümhuriyyətin süqutu bu işin başa çatdırılmasına imkan vermədi.

Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan edildi. Onun Bakı şəhərində Şəhidlər xiyabanında Əbədi məşəl abidə kompleksinin ucaldılması haqqında 1998-ci il 5 avqust tarixində sərəncamına uyğun olaraq həmin ilin oktyabrın 9-da kompleks açıldı. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamına əsasən Şəhidlər xiyabanı yenidən qurularkən Əbədi məşəl abidəsinin sütunları hündürləşdirildi və digər işlər görüldü.

Azərbaycanlılara qarşı törədilmiş soyqırımları haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük işlər Prezident İlham Əliyevin "hücum diplomatiyası" xəttini elan etməsindən sonra görüldü. Bu baxımdan, birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyətinin müstəsna əhəmiyyət daşıyan fəaliyyəti vardır.

***- Musa müəllim, mart soyqırımı tarixi bizə hansı ibrət dərslərini verdi?***

Erməni-daşnak və bolşevik qüvvələrinin Bakıda azərbaycanlılara qarşı törətdiyi soyqırımı bəşəriyyətə və sivilizasiyaya qarşı ağır cinayətdir. Əgər biz 1918-ci ilin martına qədərki buna bənzər hadisələrdən, məsələn, 1905-1906-cı il qırğınlarından bir millət olaraq ibrət dərsləri alsaydıq, müstəqil və güclü dövlətimiz olsaydı, 31 mart də olmaya bilərdi. Əgər 31 martı bilsəydik, ondan düzgün nəticə çıxarsaydıq və güclü dövlətimiz olsaydı, Xocalıda törədilən soyqırımı da olmazdı. Belə hadisələrin gələcəkdə bir daha təkrarlanmaması üçün millətimiz öz tarixini bilməli, müqəddəs dövlətimiz və uca millətimiz daim güclü olmalıdır.

✍ *Tahirə Qafarlı*

*“ Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi*

*“ Əlverişli coğrafi-siyasi mövqedə yerləşən Bakıda bütün Cənubi Qafqazın taleyi həll olunurdu.*



# UNESCO-nun Ermənistan ərazisində də monitorinq aparmasına ehtiyac var



**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

***Azərbaycan ziyalılarının UNESCO-nun Baş direktoru Odre Azuleyə indiki Ermənistan ərazisində Azərbaycana məxsus mədəni irsin yoxolma təhlükəsi ilə bağlı ünvanladığı müraciət bir çox tarixi faktların araşdırılması üçün imkan yaradır. Bu fikirləri hafta.az-a millət vəkili Könül Nurullayeva deyib.***

Millət vəkilinin sözlərinə görə, məktubda da qeyd edildiyi kimi, Ermənistanda yaşamış və bu yerlərin köklü sakinləri olan azərbaycanlılara qarşı XX əsrin əvvəllərindən etibarən aparılmış etnik təmizləmə siyasəti nəticəsində soydaşlarımız öz dədə-baba torpaqlarından kütləvi deportasiyaya məruz qalıb. 1988-ci ildə - sonuncu deportasiya zamanı 250 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovularaq qaçqına çevrilmişdir.

Fəaliyyətini bəşəri miqyasda mədəni irsin mühafizəsi istiqamətində quran UNESCO-nun yalnız Qarabağda deyil, Ermənistan ərazisində də monitorinq aparmasına ehtiyac var. Ermənistan Qarabağda olduğu kimi, burada da məqsədli şəkildə sözügedən ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini silir, Azərbaycan xalqının mədəni irsinin mənşəyini dəyişdirirlər. Təsadüfi deyil ki, İrəvan quberniyasında 300-dən çox məscid 20-ci əsrin əvvəllərində qəsdən dağıdılmış, özününkiləşdirilmiş və ya digər məqsədlər üçün istifadə edilmişdir.

Ermənistanda azərbaycanlılara məxsus 500-dən çox qəbiristanlıq məhv edilib. Bu məzarlar arasında Azərbaycanın aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin də qəbirüstü abidəsi var.

Məlumdur ki, Azərbaycan aşıq sənəti bəşəriyyətin qeyrimaddi mədəni irs nümunələri siyahısına salınıb. Bu mənada UNESCO aşıq sənətinin nümayəndəsinə qarşı bu qeyri-insani davranışa xüsusi həssaslıqla yanaşılmalıdır. Bu yanaşma Ermənistanın heç bir ümumbəşəri dəyəri tanımadığını bir daha təsdiqləyir. Həyata keçirilən bu vandallıq aktları bir daha Ermənistanda terrorun dövlət siyasəti olduğunu təsdiqləyir.

Bu illər ərzində cəzasız qalan Ermənistan terroru coğrafiyasını daha da genişləndirib.

Ermənistanda Azərbaycan xalqına məxsus olan mədəni irsin hazırkı vəziyyəti haqlı olaraq bizi narahat edir. Orada elə bəşəri dəyərlər var ki, onların aqibəti UNESCO kimi nüfuzlu təşkilatları da narahat etməlidir.

UNESCO ətraflı hesabat təqdim etmək məqsədilə Ermənistan hökumətinə rəsmi sorğu göndərməli, Azərbaycan xalqının əsrlərlə tarixi olan mədəni və tarixi irsinin hazırki vəziyyətinin qiymətləndirilməsi üçün Ermənistana ekspert qrupunun göndərilməsi təmin etməlidir.

Ermənistanın bu illər ərzində sərgilədiyi terror və vandallıq aktları həm də Azərbaycan xalqına qarşı mövcud olan dözümsüzlüyün nümunəsidir.

Bu, eyni zamanda beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il konvensiyalarının kobud şəkildə pozulmasıdır. Bu müharibə cinayətlərinə görə Ermənistan cavab verməlidir.

✍ ***Azad***

*“ Təşkilat indiki Ermənistan ərazisində mədəni-tarixi irsimizin hazırkı vəziyyətinin qiymətləndirilməsini təmin etməlidir*

# "Ermənistan Azərbaycana dəymiş ziyanı ödəməyə başlayıb"

***"Dəymiş ziyanın ödənilməsi ilə bağlı müxtəlif fikirlər söylənilir, ancaq həqiqət beynəlxalq hüquqdan irəli gəlir". Bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov deyib.***

Deputat bildirib ki, Birinci Dünya müharibəsindən sonra Versal müqaviləsi imzalanıb: "Müqavilənin tələblərinə görə, Almaniya təzminat ödəməli idi. Bu müqavilədə bir sıra maddələr müzakirəyə səbəb olurdu. Çox böyük müzakirələrdən sonra Almaniya bu müqaviləni ratifikasiya etdi.

Həmin dövrdə dəymiş ziyanın ödənilməsi birbaşa sülh müqaviləsindən irəli gələn məsələ idi. BMT çərçivəsində də bununla bağlı müəyyən təcrübələr mövcuddur. Dəymiş ziyanın ödənilməsi ilə bağlı BMT çərçivəsində bizim müəyyən hüquqi səlahiyyətlərimiz var. Yəqin ki, bununla bağlı müraciətlər edəcəyik.

Ermənistanın Azərbaycana dəymiş ziyanın ödənilməsinə başlayıb. Üçtərəfli bəyanata əsasən, Ermənistanın işğaldan azad edilmiş ərazilərdən öz qoşunlarını çıxarması dəymiş ziyanın ödənilməsinin bir hissəsidir. Dəymiş ziyanın ödənilməsinin 3 forması var:

dəymiş ziyandan öncə mövcud olan vəziyyətin bərpası;

ikincisi, kompensasiya;

üçüncüsü, beynəlxalq hüquqa zidd hərəkət edən dövlətin üzr istəməsi. Ermənistan bunun birinci formasını həyata keçirib. Beynəlxalq hüquqi müstəvidə bunu edib. Kompensasiya məsələsi ilə bağlı da dövlətimiz lazımi addımları atır".

# Gender mədəniyyəti

## Layihə

**_Müasir cəmiyyətdə gender bərabərliyinin təmin olunması əsas prinsiplərdən biridir. Qeyd edək ki, əhalisinin əksəriyyətini qadınlar təşkil edən Azərbaycanda da gender mədəniyyəti prioritet məsələlərdəndir. Gender mədəniyyətinin inkişafi hüquqi dövlət və demokratik cəmiyyətin mədəni yüksəlişinin əsas strateji istiqamətlərindən sayılır. Demokratik dövlətdə gender mədəniyyəti dövlət və cəmiyyətin idarə edilməsi və ictimai münasibətlərin tənzimlənməsinin mühüm alətidir._**



### Azərbaycanda gender mədəniyyətinin yüksəldilməsi üçün əlavə tədbirlərə ehtiyac varmı?

Cəmiyyətdə bərabərhüquqlu münasibətlərin formalaşdırılması, cəmiyyətin rifah və davamlı inkişaf tələblərinə cavab verərək, insanların sosial fəallığını artırır, şəxsiyyətin ahəngdar inkişafi və özünütəkmilləşdirməsinə şərait yaradır. Mədəniyyətin ən mühüm sosial institutlarından biri olan gender mədəniyyətinin məzmunu cəmiyyətin xarakteri, ruhi və maddi mədəniyyəti, vətəndaşların psixoloji aurası ilə birgə dəyişir. Gender mədəniyyəti dedikdə, kişi ilə qadın arasında şəxsiyyətlərarası münasibətləri, ailə və ictimai institutların qarşılıqlı təsirini səciyyələndirən sosial münasibətlərin davamlı inkişafda olan sistemi başa düşülür. Gender sosial-mədəni anlayış olmaqla, şəxsiyyət və cəmiyyətin yüksək etik mədəniyyəti ilə sıx bağlıdır. O, kişi və qadın arasındakı bioloji fərqlərlə yanaşı, mental, emosional, təfəkkür və davranış fərqləri, həyatda onların sosial rollarının bölünməsi haqqında təsəvvür yaradır.

Xatırladaq ki, Azərbaycanda gender bərabərliyi "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunla tənzimlənir. 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiqlənərək qüvvəyə minən bu qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Bu qanunun 5-ci Maddəsində "Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri", 6-cı Maddəsində isə "Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri" açıq şəkildə göstərilib. Qeyd olunub ki, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilərlə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi üçün dövlət müxtəlif tədbirlər görür.

Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda əhalinin 50.1 faizini qadınlar təşkil edir. Ölkədə iqtisadi fəal əhalinin 48.6, məşğul əhalinin isə 48.1 faizi qadınlardan ibarətdir. Burada maraqlı məqam ondan ibarətdir ki, əməkqabiliyyətli yaşda hər 100 kişidən 78 nəfəri, hər 100 qadından isə 63 nəfəri iqtisadi cəhətdən fəaldır. İqtisadi cəhətdən qeyri-fəal, heç bir rəsmi fəaliyyətə cəlb edilməyən qadınların 632 min nəfəri ev işlərini yerinə yetirən, uşaqlara və digər ailə üzvlərinə qulluq edənlər, yəni, "evdar" statusu olanlardır. Bu kateqoriyadan olan kişilərin sayı isə 33 min nəfərdir. Rəsmi göstəricilərə görə qadın işsizlərin sayı da kişilərə nisbətən 40 faiz çoxdur. Bəs, görəsən, Azərbaycanda gender mədəniyyətinin yüksəldilməsi üçün əlavə tədbirlərə ehtiyac varmı?



**Əliməmməd Nuriyev,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü, hüquqşünas

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü, hüquqşünas Əliməmməd Nuriyev bildirib ki, Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra qadın hüquqlarının qorunması üzrə demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə qoşulub:** "1992-ci ildə Azərbaycan Respublikası BMT-nin "Qadınların siyasi hüquqları" üzrə konvensiyasına, 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması" üzrə konvensiyasına, 2000-ci ildə isə onun əlavə protokoluna qoşulub. Azərbaycan hökuməti gender siyasəti sahəsində müəyyən nailiyyətlər əldə edib. Gender siyasətinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli fərmanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Komitənin əsas məqsədləri - qadınların hüquqlarının qorunması və ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasıdır. Azərbayanda 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanun qəbul olunub. Qanunun əsas məqsədi kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. Hazırda gender məsələləri üzrə məsul şəxslər demək olar ki, bütün hökumət strukturlarında və Azərbaycanın bütün rayonlarının icra hakimiyyəti orqanlarında fəaliyyət göstərirlər. Bir çox qurumlarda onlar mütəxəsis səviyyəsində, bəzilərində isə hətta sədr, nazir müavini və nazir məsləhətçisi səviyyəsində fəaliyyət göstərirlər. Yəni, son illər gender bərabərsizliyi ilə bağlı statistika yaxşılığa doğru dəyişməkdədir. Bu qadınlarımızın cəmiyyətin bütün sahələrində fəal mövqe tutmasının göstəricisi sayıla bilər. Məsələn, hazırda Azərbaycanda səlahiyyətlərinə görə, Prezidentdən sonra ikinci şəxs olan I vitse-prezident vəzifəsini qadın icra edir. Bu post 2017-ci ildə yaradılıb və buraya ölkənin Birinci xanımı Mehriban Əliyeva təyin edilib. Bundan başqa, Azərbaycanda Ailə, Qadın, Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri və İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman, Dövlət İmtahan Mərkəzi postlarını illərdir qadınlar icra edir. Ötən il keçirilən parlament seçkisində Milli Məclisə 22 qadın deputat seçilib. Parlamentdə qadınlar iki komitəyə rəhbərlik edirdilər. Eyni zamanda, Milli Məclisin sədri qadındır. Eləcə də hüquq-mühafizə və məhkəmə orqanlarında, diplomatik sahədə çalışan qadınlarımızın sayı ildən-ilə artmaqdadır.

> *"Hazırda gender məsələləri üzrə məsul şəxslər demək olar ki, bütün hökumət strukturlarında və Azərbaycanın bütün rayonlarının icra hakimiyyəti orqanlarında fəaliyyət göstərirlər*

Problemlərdən biri kimi qadın sahibkarlığının nisbətən zəif inkişaf etməsini, dövlət qulluğunda qərarvermə səviyyəsində qadınların azlığı, siyasi iştirakçılıq məsələlərində qadınlarımızın fəal olmamasını göstərmək olar. Lakin sevindirici hal ondan ibarətdir ki, son illər bu istiqamətdə də müsbət nəticələr əldə olunmaqdadır". Ekspert bununla yanaşı bildirib ki, cəmiyyətdə gender mədəniyyətinin daha da yüksəldilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsinə, bəzi hüquqi normativ sənədlərə düzəlişlər edilməsinə ehtiyac var: "Məsələn, ən diqqət yetirməli olan məsələlərdən biri qadınlarımızın daha çox spesifik sahələrə meyl göstərməsidir. Qadınlar sanki, proqramlaşdırılmış kimi, tibb, təhsil, mədəniyyət-incəsənət, iaşə sahələrini seçirlər. Halbuki Azərbaycan Respublikası Konstitusiyasında qadın və kişilərin eyni hüquq və azadlıqlara malik olduqları, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə və iş yeri seçmək hüququnun olduğu təsbit edilib. Buna baxmayaraq bəzi sahələrdə kişilərin sayı qadınlardan dəfələrlə çoxdur. Elə sahələr də var ki, orada ancaq kişiləri görmək mümkündür və yaxud da əksinə.

Bəzi sahələrdə qadınların sayı kişilərin sayını dəfələrlə üstələyir. Məsələn, təhsil və səhiyyə sahəsində qadınların, idarəetmə, hüquq mühafizə orqanları, məhkəmə sistemində kişilərin sayı daha çoxdur. Təbii ki, bunun əsas səbəbi cəmiyyətdəki bəzi stereotiplərdir. Əslində, peşələr arasında qadın və kişi fərqinin qoyulması da gender bərabərliyinin pozulmasıdır. Bu istiqamətdə müəyyən boşluqlar mövcuddur. Ona görə də qanunvericiliyin təkmilləşməsi zəruridir, 2006-cı ildə qəbul olunan qanuna və digər nornativ-hüquqi aktlara yenidən baxmaq olar. Əsas məsələ əlverişli mühit yaradılması və cəmiyyət səviyyəsində yanaşmanın dəyişməsidir. Biz hər şeyi süni şəkildə də irəli aparmağa çalışmamalıyıq. Bu çox ziyanlıdır. Elə bir mühit yaratmalıyıq ki, qadınlarımız özlərinə layiq olduqları yeri tuta bilsinlər. Bunun üçün isə cəmiyyətin bütün təbəqələrinin səyi lazmdır".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Kilsələri biz yox, ermənilər dağıdır

## Faktlar danışır

**_Tarixdən bu günə torpaqlarımıza və mədəniyyətimizə göz dikən mənfur qonşularımız hələ də öz pis niyyətlərindən əl çəkmirlər. Baxmayaraq ki, Azərbaycan Ordusu "dəmir yumruğu" ilə düşmənə layiqli cavabını verdi. "Qonşularımız" indi də deyirlər ki, guya Cəbrayılda erməni kilsələrini azərbaycanlılar dağıdıblar. İşin əsli hər kəsə məlumdur. Elə son 28 ildə düşmən nəinki işğal altında olan İslam mədəniyyəti abidələrini, hətta özlərinin inanc yeri olan müqəddəs saydıqları kilsələri belə talan edib._**

Onlar məscidlərimizi tövləyə çevirməklə, həm də öz kimliklərini bir daha xatırlatmış oldular. Gələk bu günə... Görəsən, hazırda azad edilmiş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonlarda nə qədər kilsə və monastr mövcuddur?

İşğal müddətində həmin tarixi abidələrin taleyi necə oldu? Hafta.az-ın əməkdaşı dəyişdirilən və yox edilən kilsələr, eləcə də mövzu ilə bağlı digər maraqlı məqamlar ətrafında araşdırma apardı.

**■ AMEA Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Tofiq Nəcəfli hafta.az-a bildirdi ki, uzun illər ərzində ermənilərin həm xristian, həm də İslam mədəniyyəti abidələrini dağıtdığı hər kəsə məlumdur:** "Əslində, doğru sual vaxtilə ermənilərin işğal etdiyi torpaqlarımızda salamat qalmayan dini abidələrimiz ilə bağlı olmalıdır. Bu tip xəbərləri çıxaranlardan məhv edilmiş İslam mədəniyyəti abidələrini soruşmaq lazımdır. Kilsələr ilə bağlı bunu deyə bilərəm ki, vaxtilə ayrı-ayrı bölgələrimizdə Alban dövrünə aid belə abidələr var idi. Bundan başqa, 27 il ərzində özlərinin Cəbrayılda tikdikləri kilsə də var ki, indi düşmən guya azərbaycanlıların onu dağıtdığını iddia edir. Xocavənd rayonunun ərazisində yerləşən pravoslav kilsəsi də dağıdılıb, bunu da düşmən özü edib. Elə ölkə başçısı da çıxışlarının birində bu mövzuya toxunmuşdu. Bildirmişdi ki, ermənilər nəinki bizim müsəlman, həmçinin xristian abidələrini də məhv ediblər. Bununla bağlı ortada faktlar belə var".



T.Nəcəfli bir məqamı da vurğuladı ki, Alban dövrü məbədlərimiz həm keçmiş Dağlıq Qarabağ ərazisində, həm də Kəlbəcər və Laçın rayonlarında fəaliyyət göstərib. Onların bir neçəsini ermənilər özününküləşdirməyə çalışıb.

> ***"Uzun illər ərzində ermənilərin həm xristian, həm də İslam mədəniyyəti abidələrini dağıtdığı hər kəsə məlumdur***

**■ Daha sonra müzakirəmizə Arxeologiya və Etnoqrafiya İnstitutunun ilk Orta Asiya arxeologiya şöbəsinin əməkdaşı Aliyə Adıgözəlova da qoşuldu.**

Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdəki kilsələrlə bağlı qurumun rəsmi məlumatı yoxdur. Həmin ərazilərdəki kilsələrin Azərbaycan tərəfindən dağıdılması qətiyyən həqiqətəuyğun deyil: "Təbii ki, bu tip məlumatlar yanlışdır. Heç ölkə rəhbərliyi de belə halların yaşanmasına izin verməz. Həmin ərazilərdə mövcud olmuş kilsələrin hazırkı taleyi ilə bağlı özümüz də məlumatlı deyilik.

Arxeologiya İnstitutunun əməkdaşları olaraq əraziyə hələ ki ezam edilməmişik. Ora baxış keçirən şəxslər Mədəniyyət Nazirliyinin xüsusi ekspert qrupudur ki, onlar da işğaldan azad edilmiş ərazilər üzrə bölünüblər. Həmin əməkdaşlar kilsələr də daxil olmaqla, yeraltı və yerüstü abidələrlə bağlı monitorinq keçirirlər".

A.Adgözəlova işğal müddətində böyük monastrların istifadə edildiyini də bildirdi. Ola bilsin ki, kiçik xristian ibadətgahları uzun illər baxımsız qalaraq məhv olub:

"Biz bilirik ki, ermənilər özləri onlardan ibadət yeri kimi istifadə ediblər. Bu kilsələr dəfələrlə restavrasiya da olunub. Misal olaraq, "Xudavəng", "Ağoğlan", "Amaras" kimi monastrları göstərmək olar. Daha kiçik, sövmətipli komplekslərin isə mövcudluğu bir qədər sual altındadır. Sövmələr kiçik kilsələrdir. Bunlar da adətən, tranzit yolları üzərində qurulurdu, keçid məntəqəsi funksiyası daşıyırdı.

Yoldan keçən xristian tacirlər burada dayanıb öz ibadətlərini edirdilər. Qarabağdan kənarda - şimal-qərb ərazisində mövcud olan sövmələr isə müəyyən tarixi dövr ərzində baxımsızlıqdan, deformasiya ucbatından dağılır. Ona görə Qarabağ ərazisində olan kilsələri gözlə görmədən konkret fikir söyləmək yanlış olardı". "Yer üzərindəki ən uzunömürlü şey həqiqətdir", - deyirlər. Bu gün düşmən özünü hər vəchlə dünyaya haqsızlığa uğrayan tərəf olaraq göstərmək istəyir. Faktlar öz sözünü deməkdədir. Dağıdılan məscidlər, teatrlar, muzeylər və xristian kilsələri isə həqiqətlərin acı tərənnümüdür.

***✍ Banu***

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ Azərbaycanda tanınmış hüquqşünas Nicat Gözəlov vəfat edib, 55 yaşında yaşında dünyasını dəyişən hüquqşünasın ölümünə səbəb koronavirus infeksiyası olub.

■ Çexiyada koronavirusun yeni ştammı aşkarlanıb, yeni ştamm koronavirus testləri aparan "Elisabeth Pharmacon" ixtisaslaşdırılmış laboratoriyanın əməkdaşları tərəfindən müəyyən edilib.

■ Çinin "Sinofarm" şirkətinin koronavirus vaksinlərinin Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) istehsalı başlayacaq, bunun üçün paytaxt Əbu-Dabidə bu il yeni zavod inşa olunacaq.

■ Keniyada ABŞ-ın sabiq prezidenti Barak Obamanın ögey nənəsi Sara Obama vəfat edib, 99 yaşlı qadın müalicə olunduğu xəstəxanada həyatını itirib.

■ Milli Məclisin deputatlarının koronavirusa qarşı vaksinasiyasının ikinci mərhələsi başa çatıb. Ötən həftə ərzində deputatlara vaksinin 2-ci dozasının vurulması həyata keçirilib.

■ Azərbaycan Respublikasında koronavirus infeksiyasından 349 nəfər müalicə olunaraq sağalıb, 1129 yeni yoluxma faktı qeydə alınıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib.

■ 2021-ci ilin yanvar-fevral aylarında Azərbaycanda pul kütləsi 2020-ci ilin eyni dövrü ilə müqayisədə 7 faiz artaraq 19,59 milyard manat təşkil edib, hesabat dövründə dövriyyədəki nağd pul kütləsinin həcmi 9,2 faiz artaraq 10,46 milyard manat, geniş pul kütləsi 0,1 faiz azalaraq 28,58 milyard manata bərabər olub.

■ Rusiya Masallı rayonunun Kolatan kəndində doğulmuş, 1986-cı il təvəllüdlü Teymur Cəfərovu İnterpol vasitəsilə axtarır,o, terror təşkilatının fəaliyyətində iştirak və qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməkdə təqsirli bilinir.

■ Martın 29-u səhər saatlarında Sumqayıt şəhərinin 17-ci mikrorayonunda yaşayan 2003-cü il təvəllüdlü Misirli Könül Elçin qızı özünü öldürüb, o, binanın 9-cu mərtəbəsində yerləşən yaşadığı mənzildən özünü atıb.

■ Pakistan prezidenti Arif Alvi yeni növ koronavirusa (COVID-19) yoluxub, bu barədə Pakistan prezidenti "Twitter"də məlumat verib.

■ Livanın "Sanitech Elias Doumet" şirkəti Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsində Ermənistana qarşı iddia qaldırıb, şirkət Yerevan şəhərinin meri Ayk Marutyanı onların fəaliyyətinə qanunsuz xitam verməkdə ittiham edir.

■ Bu gün ümumi təhsil müəssisələrinin 98.4 faizində tədris ənənəvi üsul ilə təşkil edildi, bunu təhsil naziri Emin Əmrullayev özünün "Facebook" səhifəsində yazıb.

■ Birinci Qarabağ müharibəsində iştirak etmiş erməni general-mayor Arkadi Ter-Tadevosyan xəstəxanaya yerləşdirilib, hnun səhhətində ciddi problemlərin yarandığı bildirilir.

## İqtisadiyyat

# Subsidiyaların verilməsində yenilik

***Məlum olduğu kimi, "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilib. Dəyişikliklərə əsasən, ayrılan subsidiya daxilində alınan gübrə və biohumusun dəyərinin 30 faizinin fermerlər tərəfindən nağd şəkildə ödənilməsi qaydası ləğv edilib. Bundan sonra fermerlər aldıqları biohumusun və gübrənin tam dəyərini "Fermer kartı"nın nağdlaşdırılmayan hissəsindəki vəsait hesabına ödəyə biləcəklər.***



Daha bir dəyişikliyə əsasən, təqvim ili ərzində büdcədən ayrılan və fermerə verilməyən subsidiya məbləği büdcəyə qaytarılacaq. Fermerə verilən subsidiya vəsaiti 2 il ərzində istifadə edilmədikdə, bu barədə ona SMS və elektron poçt vasitəsilə bildiriş göndəriləcək. Bildiriş göndərildikdən sonra fermer 3 ay ərzində subsidiya vəsaitini istifadə etmədikdə, növbəti il üçün ona subsidiya ödənilməyəcək.

Qaydalara edilən daha bir dəyişikliyə görə, Aqrar Kredit və İnkişaf Agentliyinin monitorinq və qiymətləndirmə funksiyası genişləndirilib. Subsidiya mexanizminin səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə subsidiya alınması üçün müraciət daxil olduqda və ya əldə edilmə mənbəyi bəlli olan hər hansı məlumat əsasında fermerin bəyannaməsində göstəriləndən fərqli hallar aşkar edildikdə, Agentlik tərəfindən çarpaz, yerüstü müşahidə və yerində müşahidə ardıcıllığı ilə monitorinqlər aparılacaq.

Yeri gəlmişkən, kənd təsərrüfatı məhsulu istehsalının subsidiyalaşdırılması qaydası ilə bağlı daha bir yenilik gözlənilir. Belə ki, subsidiyalaşdırılma qaydasının pozulmasına görə cərimə müəyyənləşdirilir. İnzibati Xətalar Məcəlləsinə bununla bağlı yeni - 411-2 maddəsinin əlavə edilməsi təklif olunur. Layihəyə əsasən, fermer tərəfindən "electron kənd təsərrüfatı" informasiya sisteminə bilərəkdən yanlış məlumat daxil edilməklə subsidiya alınmasına, yaxud hesablarına köçürülən subsidiya məbləğindən



**Vahid Məhərrəmli,**
Aqrar İslahatlara Dəstək İctimai Birliyinin rəhbəri

> *Biz çalışmalıyıq ki, o sahə gəlirli olsun, həm fermerlərə, kəndlilərə gəlir gətirsin, digər tərəfdən ölkə də özünün ərzaq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəsin*

təyinatı üzrə istifadə edilməməsinə görə xəbərdarlıq edilir və ya inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) 2 mislindən 4 mislinədək miqdarda cərimə tətbiq olunması nəzərdə tutulur.

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyi 2020-ci ilin payızlıq əkinlərinə görə fermerlərə subsidiya ödənişlərini davam etdirir. Monitorinq nəticələrinə uyğun olaraq müraciətləri təsdiqlənmiş daha 45,348 fermerə əkin subsidiyası ödənilib. Bununla da, müvafiq dövrdə payızlıq əkinlərə görə subsidiya almış fermerlərin sayı 227 998 nəfərə çatıb. Ümumilikdə 335 min nəfərdən artıq fermer Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 2020-ci il üzrə payızlıq

### Yeni dəyişikliklərdən gözləntilər nədən ibarətdir?

əkinləri bəyan edib. Fermerlərin əkin bəyanları təlimatlara uyğun olaraq yoxlanıldıqca, subsidiya ödənişləri həyata keçirilir.

AKİA-dan bildirilib ki, subsidiya qaydalarına uyğun olaraq, ödənişlər fermer kartlarına 25faiz nağdlaşdırıla bilən və 75 faiz nağdsız hissə şəklində ödənilib. Fermerlər subsidiyanın nağdlaşdırıla bilinməyən hissəsi ilə gübrə, pestisid, toxum və ting təchizatçılarından təsərrüfatlarına lazım olan məhsulları POS-terminal vasitəsilə ödəniş etməklə əldə edə bilərlər. Subsidiya qaydalarında edilmiş son dəyişikliyə görə, fermerlər təsərrüfatları üçün gübrənin tam dəyərini "Fermer kartı" ilə nağdsız ödəmək imkanı qazanıblar.

Xatırladaq ki, pandemiya səbəbindən ötən il bir sıra ölkələr aqrar sektora subsidiya ayırmaqda çətinliklərlə üzləşdiyi halda, Azərbaycanda kənd təsərrüfatı subsidiyaları 18,7 faiz artıb. Belə ki, 2020-ci ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 402,7 mln. manat vəsait yönəldilib. Maliyyə Nazirliyinin məlumatına görə, bu, əvvəlki ildən 63,3 mln. manat, yaxud 18,7 faiz çoxdur. Ötən il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilmiş yeni mexanizmə uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiya, o cümlədən, əkin, məhsul, toxum, heyvan, arı və barama subsidiyaları verilməsinə başlanıb. Dizel yanacağının qiymətinin qalxmasının kənd təsərrüfatına təsirini aradan qaldırmaq üçün fermerlərə verilən subsidiyaların məbləği də artırılıb.

Bəs görəsən, yeni dəyişikliklər nə vəd edir? Bu sahədə şəffaflığın təmin olunması üçün daha hansı addımların atılmasına ehtiyac var?

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Aqrar İslahatlara Dəstək İctimai Birliyinin rəhbəri Vahid Məhərrəmli deyib ki, Azərbaycanda kənd təsərrüfatı üzrə subsidiyalar 2007-ci ildən verilməyə başlayıb:** "Bu məqsədlə ilk dəfə 80 milyon manat ayrılmışdı. İndi bu rəqəm 350 milyon civarındadır. Yəni, dövlət tərəfindən aqrar sektora ayrılan subsidiyanın məbləği dəfələrlə artırılıb. Burada bir məsələ var ki, biz istehsalda ciddi irəliləyiş hiss etmirik. Qeyri-neft sektorunun əsas sahəsi sayılan aqrar sektor ləng inkişaf edir. Ümumi ölkə üzrə məhsuldarlığın artması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması istiqamətində bir artım görmürük. Bu o deməkdir ki, qeyri-səmərəli biznesi stimullaşdırırıq. Belə olmalı deyil, biz çalışmalıyıq ki, o sahə gəlirli olsun, həm fermerlərə, kəndlilərə gəlir gətirsin, digər tərəfdən ölkə də özünün ərzaq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəsin. Mən isə hesab edirəm ki, buna görə də hökumət çalışmalıdır ki, əmtəəlik məhsula görə, yəni kəndli, fermer istehsal etdiyi məhsulu təhvil verir emal müəssisəsinə, onun əvəzində qəbz əldə edir və yaxud da elə emal müəssisəsinin vasitəsilə kəndliyə subsidiya vermək olar ki, yəni o əmtəəlik məhsul istehsal etməkdə daha da maraqlı olsun. Tutaq ki, fermer istehsal etdiyi buğdanı un istehsalı ilə məşğul olan müəssisəyə satır və onun müqabilində qəbz alır. Həmin məhsulun həcminə görə də fermerə subsidiya ayrılır. Bu zaman fermer əmtəəlik məhsul istehsal etməkdə maraqlı olacaq. Bizdə isə vəziyyət tam əksinədir. Ya nəzərdə tutulan vəsait düzgün istiqamətə yönləndirilmir, ya da fermerə təklif olunan istehsal vasitələri keyfiyyətsiz olur. Məsələn, mən dəfələrlə demişəm ki, istehsalda istifadə olunan gübrə, pestisitlər keyfiyyətsizdir. Keyfiyyətsiz istehsal vasitələri isə torpağın keyfiyyəti aşağı salır, nəticədə də məhsuldarlıq istənilən səviyyədə olmur. Elə bir mexanizm tətbiq etmək lazımdır ki, məhsuldarlıq artsın, məhsulun keyfiyyəti yaxşılaşsın. Əks təqdirdə, atılan addımlardan ciddi müsbət nəticələr əldə etmək qeyri-mümkündür".

■ **Məsələyə münasibət bildirən sabiq maliyyə naziri, professor Fikrət Yusifovun sözlərinə görə, aqrar sektorun subsidiyalaşdırılması çox önəmli məsələdir:**

"Məsələ ondadır ki, Azərbaycan aqrar ölkədir. Bir sıra məhsulların istehsalı üçün ölkədə əlverişli iqlim mövcuddur. Bu səbəbdən aqrar sektorun inkişafı üçün çox böyük perspektivlər və ehtiyatlar var. Ona görə də dövlətimiz ölkə iqtisadiyyatının neftdən asılılığını minimuma endirmək üçün qeyri-neft sektorunun aparıcı sahələrindən olan aqrar sektora xüsusi önəm verir. Nəticədə kənd təsərrüfatına verilən dövlət dəstəyi ilbəil artır. Subsidiyaların artırılması dövlətin aqrar sektora olan münasibətindən irəli gəlir. Məqsəd bu sahənin daha dinamik inkişafını təmin etməkdir. Bundanəvvəlki dönəmlərdə subsidiyaların verilməsində çox böyük pozuntular aşkarlanmışdı. Mexanizmlər nə qədər təkmilləşdirilsə də, nəzarət tədbirləri də bir o qədər artırılmalıdır. Subsidiyaların təyinatı üzrə istifadə olunmasına ciddi nəzarət edilməlidir. İşbazlar həmin vəsaitləri mənimsəmək üçün mütləq yeni yollar axtaracaqlar".



**Fikrət Yusifov,**
sabiq maliyyə naziri, professor

> *Subsidiyaların artırılması dövlətin aqrar sektora olan münasibətindən irəli gəlir. Məqsəd bu sahənin daha dinamik inkişafını təmin etməkdir*

✍ *Sevinc*

---

# Naxçıvanda toylara icazəni bütün ölkə üçün kriteriya götürmək olmaz

***Naxçıvan Muxtar Respublikasında toyların keçirilməsinə icazə verilib. Bununla bağlı sosial şəbəkələrdə də məlumat yayılıb. Bildirilir ki, Naxçıvanda fəaliyyət göstərən restoranlara qonaqların sayı 40 nəfər olmaqla toy məclislərini təşkil etmək icazəsi var. Bəs görəsən, prosesin davamı olaraq, növbəti günlərdə bunu ayrı-ayrı bölgələrimizdə də təşkil etmək mümkündür? Yoluxma sayı nəzərə alınaraq, digər ərazilərdə də toylara icazə verilə bilər? Hafta.az əməkdaşı mövzu ilə bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ilə həmsöhbət oldu. Onun sözlərinə görə, hazırda ölkənin digər bölgələrində epidemioloji vəziyyət toyların təşkilinə icazə vermir:***



**Musa Quliyev,**
Milli Məclisin deputatı

- Yoluxma bu dinamika ilə artmağa davam edərkən hər hansısa bir toy və yas kimi kütləvi tədbirlərdən danışmaq nə qədər məntiqlidir? Naxçıvanda vəziyyət bir qədər fərqlidir. Ora gediş-gəliş də təyyarə ilədir. Bu zaman da hər kəs yoxlanışdan keçir. Buna görə də oradakı epidemioloji situasiya ölkənin digər yerlərindəki vəziyyətlə eyni deyil. Hazırda Naxçıvanda məktəblər də, idman zalları da açıla bilər.



Azərbaycanın digər bütün bölgələrinin bir-biri ilə quru əlaqəsi var. Naxçıvan isə coğrafi olaraq bu bölgələrə bağlı deyil. Biz hazırda çalışmalıyıq ki, ölkədə virusa yoluxmaların sayı artmasın, azalma istiqamətində tədbirlər getsin. Naxçıvanda məktəblərin açılmasını yaxud, toylara icazə verilməsini bütün ölkə üçün kriteriya götürmək olmaz.

***- Bəs ölkənin hər yerində kafe və restoranların fəaliyyəti? Burada da eyni anda 40-50 nəfərdən çox adam asudə vaxtını keçirə bilir?***

- Oradakılar eyni tədbirə gələn insanlar deyillər. Restoranlara müxtəlif vaxtlarda fərqli insanlar gəlir. Həm də axı kafe ilə toyun da şərtləri fərqlidir. İnsanların bir-biri ilə rəqs etməsi, görüşməsi var. Həmçinin masaların məsafəsində nəzarət etmək də çətin olacaq. Vacib deyil ki, toy üçün böyük tədbir keçirilsin. Ailə tədbirini keçirməyə heç kəs qadağa qoymur. Cütlüklər nikahlanıb, ailələri ilə şənliklərinin edə bilərlər. Buna heç bir qadağa yoxdur. Şadlıq evlərində, toplum şəklində toy təşkil etmək indiki vaxt üçün uyğun deyil.

> *Ailə tədbirini keçirməyə heç kəs qadağa qoymur. Cütlüklər nikahlanıb, ailələri ilə şənliklərinin edə bilərlər*

Qeyd edək ki, ölkəmizdə ötən ilin mart ayından etibarən toy yas və digər kütləvi tədbirlərin keçirilməsinə qadağa qoyulub. Eyni zamanda, Bakı şəhərində və respublikanın müxtəlif regionlarında müxtəlif vaxtlarda keçirilməli olan ənənəvi Novruz şənlikləri və başqa bayramların respublika səviyyəsində təşkili ləğv edilib.

Məlumat üçün deyək ki, qardaş ölkə Türkiyədə toy mərasimləri və bənzər yığıncaqların təşkil olunması qaydaları bölgələrdəki epidemioloji vəziyyətə görə müəyyənləşdiriləcək. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabineti ilə iclasdan sonra jurnalistlərə açıqlamasında bildirmişdi.

Belə ki, nikah mərasimləri şəklində toylar aşağı və orta yoluxma riskli əyalətlərdə maksimum 100 nəfər, yüksək və kritik yoluxma riskli bölgələrdə 50 nəfərdən çox iştirakçı və müddəti bir saatdan çox olmamaq şərtilə keçirilə bilər.

Qeyri-hökumət təşkilatlarının, ticarət birliklərinin, kooperativlərin və buna bənzər təşkilatların ümumi yığıncaqları isə aşağı, orta və yüksək riskli vilayətlərdə 300-dən çox iştirakçı olmamaq şərti ilə keçirilə bilər.

✍ *Banu*

---

# "Human Rights Watch" minalanmış ərazilərin xəritəsi məsələsini qaldırsın

***"Human Rights Watch" Azərbaycanda saxlanan erməni əsirlərlə bağlı qərəzli hesabatı beynəlxalq ictimaiyyəti çaşdırır. Azərbaycan torpaqlarını 30 il işğalda saxlayan, Azərbaycanda soyqırımlar, qırğınlar törədən bu "demokratiya və hüquq" carçıları nədənsə erməni cinayətlərini qulaqardına alıb, ölkəmizə qarşı cəfəng çıxışlarından əl çəkmir.***

44 günlük Vətən müharibəsindən sonra torpaqlarımızı maddi-mədəniyyət abidələrimizi dağıdan, bütün ərazilərimizi minalayan, müharibədən sonra da 10-larla hərbçi və mülki vətəndaşlarımızın minaya düşərək həlak olmasından, minalanmış ərazilərin xəritəsinin verilməsinə yönəlik heç bir addım atmayan bu üzdəniraq hüquq müdafiəsi təşkilatı, nəyə görə Ermənistandan etdiyi cinayətlərə görə hesabat istəmir?! Beynəlxalq təşkilatlar niyə yenə də ikilistandartlardan əl çəkmir?

■ **Millət vəkili Fazil Mustafa hafta.az-a bildirib ki, "Human Rights Watch" öz ampluasına uyğun olaraq çıxış edib. Onun sözlərinə görə, bu təşkilat arada guya Azərbaycanın mövqeyinə yaxın mövqe ifadə eləsə də, indi əsl üzünü göstərir:**

"Biz həqiqətləri özümüz dünyaya çatdırmalıyıq. Bu cür qərəzli yanaşmalar birinci dəfə deyil. Bu təşkilatdan belə bir qərəzli hesabatın verilməsində də təəccüblü bir şey yoxdur. İnformasiya mexanimiz daha çevik işləməli və belə təxribatların qarşısı alınmalıdır".

Millət vəkili bildirir ki, insan hüquqlarının qorunmasından danışan və müharibə cinayətlərini törədənlərin haqsız müdafiəsinə qalxan bu qurum haqqı qorumaq istəyirsə, ermənilərin Azərbaycan ərazilərində basdırdığı minaların xəritəsinin bizə verilməsini təmin etməlidir. Həmin o erməni cinayətkarlarının basdırdığı minalar bu gün xeyli mülki, hərbi insanımızın həlak olmasına səbəb olur. "Human Rights" niyə bunu görə bilmir?! Bu təşkilat bu işlə məşğul olsa daha böyük fayda vermiş olar. Millət vəkili Fəzail İbrahimli bildirir ki, "Human Rights Watch" (HRW) Azərbaycanda saxlanılan erməni müharibə əsirlərinə qarşı pis rəftarın olduğunu iddia etməsi qərəzli yanaşmanı əks etdirir. Onun sözlərinə görə, qələbəyə qədər bu cür bitərəfli, qərəzli siyasət yürüdənlərin çıxışlarından narahat olurduqsa, bu gün belə hallar bizi təəccübləndirmir:

"Ermənipərəst qüvvələr sakit oturmayacaq. Biz psixoloji, siyasi cəhətdən buna hazır olmalıyıq. Nə vaxt bizdən nəyisə qoparmaq istəyəndə bir erməni kartını atacaqlar ortaya, bu da hamıya bəs edəcək. Deyir, dəyirman bildiyini edir, çax-çaxı baş ağrıdır". Millət vəkili bu təşkilatın işğalçı dövlətin başqasının ərazilərində basdırdığı minaların xəritəsini niyə verməməsi ilə bağlı məsələnin qaldırılmadığı səbəblərinə toxunub: "Burada bir xristian təəssübkeşliyi var. Deyir, "ətini yeyəndə, sümüyünü bir yerə yığır".

Bir müsəlman dövləti olaraq müharibədə qələbə qazanmağımız, dünyaya nümunə olan döyüş nümayiş etdirməyimizi həzm edə bilməyəcəklər. Həmin o təşkilatların bir çox üzvləri ermənilərin maliyyəsi ilə yaşayır. Mən Avropa Şurasında Azərbaycan nümayəndə heyətində iştirak edəndə ermənipərəst deputatların necə fəal olduğunu görmüşəm. Onların həyatı, fəaliyyəti erməni lobbisindən asılıdır". F.İbrahimli bildirir ki, Avropanın demokratiyası çoxdan çürüyüb: "Hələ 1912-ci ildə Balkan müharibəsində müsəlmanları kütləvi şəkildə qətlə yetirdilər. Avropa, rus mətbuatı bunun əksini yazdı. O vaxt Əhməd Ağaoğlu bununla bağlı "Balkan vəhşiliyi və rus mətbuatı" adlı maraqlı məqalə yazdı.

Orada deyilir ki, Balkan müharibəsinə qədər bizim də arzumuz Avropa demokratiyasına qovuşmaq idi. Avropa demokratiyası bizim üçün bir yol göstərən düşüncə idi. Balkan müharibəsindən sonra demokratiyanın rəngi dəyişdi. Məlum oldu ki, Avropa demokratiyası İran bazarını dolduran üstübəzək, içiçürük mallardan başqa bir şey deyil. Bu ötən 30 il ərzində demokratiyanın rəngi qaraldı. İnsan hüquqları, insan müdafiəsi gülünc ifadəyə çevrildi. Ona görə də bu cür "Human Rights" kimi təşkilatların çıxışlarını göydə aya hürümə kimi qəbul edirəm".

✍ *Tahirə*

## Müsahib

# Qalib ölkə ittiham olunmur

**44** ***günük Vətən Müharibəsində əldə olunan hərbi qələbədən sonra Ağdam, Kəlbəcər və Laçının bir güllə atılmadan azad edilməsi müharibənin sülhlə əvəzlənməsi prosesində diplomatiyanın ilk uğuru kimi dəyərləndirilir. Görünən odur ki, üçtərəfli bəyannaməyə əməl etməyən Ermənistan sülhə gəlmir. O zaman Azərbaycan nə zamana qədər səbrlə davranmalı və humanist addımlarını davam etməlidir? Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən Milli Məclisin sədr müavini Fəzail İbrahimli mövcud vəziyyətlə bağlı ortaya çıxan narahatlıqlara aydınlıq gətirib.***



**Fəzail İbrahimli,**
Milli Məclisin sədr müavini

***- Fəzail müəllim, düşmən məğlub olsa da, var gücü ilə Qarabağda separatizmi alovlandırmağa çalışır. Bütün bunların fonunda regionun hazırkı reallığını necə dəyərləndirirsiniz?***

- Bəzən hadisələr elə şişirdilmiş fonda qələmə verilir ki, az qala, Azərbaycan üçün "Xandostu, amandı qoyma gəldi..." vahiməsi yaradılır. Bir gerçəklik var - Ermənistan ölmüş bir ölkədir, daxilində partlayış, hakimiyyət üstündə qırğın gedir. Belə bir deyim var: bağanı ya öldür, ya da arxasıüstə çevir. Biz də bu "bağanı" arxasıüstə çevirmişik. Bu gün Ermənistanda Qarabağ klanı ilə Yerevan klanı arasında ağır toqquşma var. Buna baxmayaraq, Paşinyanı devirmədilər. Onun hakimiyyətə gəlməsini təmin edən yerli camaat Qarabağ klanının 30 illik işğalından qurtulub. Bundan sonra özlərini təzədən işğal zonasına çevirmək, Sarkisyanın, Köçəryanın, yaxud onlara yaxın adamların hakimiyyəti bərpa etməsini istəməzlər. Paşinyan məğlub olub və işğal edilən torpaqlardan çəkilib. Belə olan vəziyyətdə Ermənistandan bizə hansı təhlükə gələ bilər.

Qarabağda olan separatçılara gəlincə, biz hələ bilmirik bu, hansı siyasətin davamıdır. Bir qrup diversant əsir götürüldü, sonra başladılar ki, əsirləri buraxın. Ermənistan ordusu, Xankəndidəki o qurama respublikanın ordusu birləşib nə qələt elədi ki, indi 3-5 nəfər yığışıb hansı qələti etsin?! Düşmən 200 il idi ki, xristianın ağuşuna sığınıb orda özünə qurduğu qaladan başımıza güllə-bomba yağdıraraq ən yaxşılarımızı sıradan çıxardırdı. Bizi dünya ictimaiyyətinin gözündən salır, tariximizdə faciələr yaradırdı. Hazırda biz dünya erməniçiliyini yuvasından çıxarıb başını əzdik. Bununla da "böyük Ermənistan" ideologiyasının tabutuna axırıncı mismarı vurmuşuq, dəfn olunub o məsələ. Müharibə qurtarandan sonra burada üçüncü dövlətin marağı meydana çıxıb. Bunun da müsbət-mənfi tərəfləri var. İndi üçüncü tərəf orada sərhədi qoruyur, qırğın, adam ölümünün qarşısı alınıb. Elə 1945-ci il Böyük Vətən müharibəsi qurtaranda tam başa çatması il yarım davam eləmişdi. Bir sözlə,



biz qələbəni çalmışıq, status məsələsini də atmışıq zibil yeşiyinə... İndi bizim o ərazilərdə erməni xalqı da yaşıyır. Dünyanın tolerant xalqı olan Azərbaycan təxribatlara uyub təzədən Qarabağa - Xankəndinə hücum etməz. Biz erməni deyilik. Tədricən bu proses də yoluna düşəcək. Cənab Prezident bəyan edib ki, bir Azərbaycan vətəndaşı kimi ermənilər burda yaşayır, yaşasın... Dünyaya bundan böyük mesaj ola bilməz.

Laçın dəhlizi məsələsinə gəlincə, əgər hansısa razılığa gəlmək istəyiriksə, ən cüzi məqamları da nəzərə almalıyıq. Üç rayonun güllə atılmadan işğaldan azad olunması naminə hansısa güzəştli addım atılmalı idi. Bu da oldu Laçın dəhlizinin açıq qalması. Bu məsələ də tədricən yerinə düşəcək. Hələlik isə bölgədə olan reallıq budur ki, biz qalibik.

Vaxtilə Minsk Qrupunun antropoloji cəhətdən uğursuz olan o sifətinə baxıb nəsə umurduq. İndi onlar bizdən umur. Diqtə edən tərəflər dəyişib. Azərbaycanın uğurlarına kölgə salmaq istəyənlər, boz sifətlər, nimdaş üzlər var və olacaq. İçərimizdə və xaricdə olan ermənipərəst qüvvələr bizə təsir etməyə çalışacaqlar. Bunlar hamısı boşdur. Qalib ölkə ittiham olunmur.

***- Sülh naminə sülhməramlılarla bağlı problemlər aradan qaldırılmalıdırmı?***

- Təbii ki, həllini tapmalıdır. Bunun da zamana ehtiyacı var. Belə məsələlər bir günün içində həll olunmur. 30 illik narahatçılığımıza 44 gün ərzində son qoyuldu. 10 noyabr atəşkəs bəyannaməsi olmasaydı, bu müharibə bir qədər də davam edə bilərdi. Düşmən ərazilərdə möhkəm istehkamlar qurmuşdu. Onun yarılması qan, can bahasına olacaqdı. Bu suala dövlət başçısının gözəl bir ifadəsi ilə cavab verərdim: mən nəyin nə vaxt və necə həll edilməsini yaxşı bilirəm. Ona görə də siyasətdən kənar adamlar, çayı qabağına qoyub filosofluq eliyənlər, hərbi bilməyənlər belə məsələlərə yersiz müdaxilə etməməlidir.

***- Hərbi ekspertlər hesab edirlər ki, əgər Ermənistan sülh müqaviləsi bağlamayıbsa, müharibə riski açıq qalır. Ermənistan "dava-dava" deyir. Niyə sülh müqaviləsi bağlanmır?***

- Ermənistan öz məğlubiyyətini işğal etdikləri ərazilərdən geri çəkilməsi kimi qiymətləndirmir. Ermənilər özlərində guya öz ərazilərindən geri çəkilmək kimi yalan fikir formlaşdırıblar. O sülh müqaviləsi Paşinyanla bağlanmalıdır. Birincisi, Paşinyanın buna istəyi yoxdur. Əgər sülh müqaviləsini bağlasa, ermənilər onu asarlar. Özünü elə qələmə verir ki, guya imam övladıdır, guya xalqı bunu sülh müqaviləsini bağlamağa qoymur. Yox, o da ermənidir, onlara etibar yoxdur. Digər tərəfdən, sülh müqaviləsinin bağlanılması da vaxt tələb edən bir məsələdir. Ermənilər indən sonra gözləyəcəklər ki, Qarabağda status alsınlar. Bu məsələ müzakirə olunub sona çatana qədər də Dağlıq Qarabağda bir dənə erməni qalmayacaq. Burada çox mübahisə doğuran məqamlar var. Azərbaycan vətəndaşı başa düşməlidir ki, Azərbaycan qalibdir, istənilən vaxt Ermənistanın ata biləcəyi addıma qarşı Dəmir Yumruğu ilə dayanıb.

***- Fəzail müəllim, xarici güclərin - Fransanın, Amerikanın, Avropanın müxtəlif cəhdlərlə Azərbaycana qarşı sanksiya tətbiqinə çalışması nə ilə bağlıdır. Nəyi həzm edə bilmirlər - Azərbaycanın qələbəsini, Türkiyənin regiona daxil olmasını, yaxud Rusiyanın regionda söz sahibi olmasını?***

- Avropa ölkələrinin Azərbaycanla bağlı addımlarına görə kimdəsə hansısa bir təəccüb yaranırsa, mən həmin adama qibtə edirəm. Bizim təəccüb mərkəzimiz avropalıların bizə olan münasibətindən bu günə qədər iflic olmalı idi. Avropada bizə nə vaxt qayğı göstərib, nə vaxt bizim haqq işimizi müdafiə ediblər. Elə 1920-ci ildə Azərbaycan dövlətinin məğlub olmasına rəvac verənlər Avropa dövlətləri deyildimi? Avropa dövlətlərini burada hansı millətlərin yaşaması yox, regionda öz nüfuzunu necə qüvvətləndirməsi narahat edir. Avropanın, Amerikanın bu saat "Ermənistanın Qarabağdakı mövqeyini müdafiə eləyim" düşüncəsi yoxdur. Bu absurddur. Bayden yatıb yuxuda görmür ki, ay aman, Qarabağı ermənilərə qaytarmaq lazımdır. Belə məsələ yoxdur. Onlar regionda möhkəmlənmək istəyirlər. Ukraynada da möhkəmlənmək istəyirlər. Orada rusa qarşıdır, burda Azərbaycana qarşıdır. Bunlar istəyir ki, Ermənistandakı siyasi hakimiyyətə gələn qüvvələr Amerikapərəst qüvvələr olsun. Paşinyan özü onların şinelindən çıxmış adamdır. Ona görə də bu gün onları devirə bilmirlər. Avropa bizim sərhədləri olduğu kimi qəbul edib. Bu baxımdan düşünürəm ki, bu məsələdə problem yanaşma tərzindədir. Heç kəs düşünməməlidir ki, Baydenin Paşinyana Qarabağdan çıxdığına görə ürəyi yanır. Bayden üçün heç bir fərqi yoxdur ki, Qarabağ kimdədir.

O ki qaldı Türkiyəyə, heç bir qüvvə Türkiyənin regiondakı mövqeyini zəiflədə bilməz. Türkiyə Azərbaycandadır. Rusiya bu məsələdə ən böyük problem törədən dövlətdir. Rusiyanın özünün də Türkiyəyə çox böyük ehtiyacı var. Çox qəribədir, 1920-ci il mart ayının 16-da Antanda qoşunları İstanbula girdi, Türkiyə 1-ci Dünya müharibəsində məğlub olmuşdu, Türkiyəni bölüşdürdülər. Fransa, İngiltərə sevgisi olanlar bir oyuncaq dövlət yaratdılar və Anadolu sərhədlərində ona dövlət verdilər. Atatürkü düşmən elan etdilər, böyük Ermənistan, Böyük Yunanıstan yaradılmasına rəvac verdilər. Atatürk gəldi, bu problemləri həll elədi və Türkiyəni qurtardı. Onda da Türkiyənin bölüşdürülməsi siyasəti gedirdi ki, Türkiyə tənha qaldı. Atatürk 1923-cü ildə Cümhuriyyəti qurandan sonra tənha qaldı, Avropa dövlətləri ilə düşmən oldu, ətrafında heç bir dostu yox idi. Bolşeviklər hakimiyyətə gəldi, onların da güvənc və güvən yeri olmadı. Dünyada qəbul olunmayan iki hakimiyyət - Leninin - bolşeviklərin hakimiyyəti və Atatürkün Demokratik Cümhuriyyəti. Bunlar məcbur olub bir-birinin əlindən tutdular. Baxın, həmin situasiya bu gün də təkrar olunur. Türkiyənin gücü böyük dövlətlər tərəfindən böyük qısqanclıqla qarşılanır. Rusiyanın da başının üstündə qara buludlar fırlanır. Bunların ikisinin birgə hərəkət etməsi bugünkü dünyanın onlara qarşı olan münasibətlərinə böyük sipər ola bilir. Ona görə də Qafqazda düşünülmüş kifayət qədər Azərbaycanın xeyrinə olan proseslər gedir. Biz də qələbə çalıb oturmuşuq "ağ atın" belində. İnşAllah, bu atı çapıb, Xankəndini də keçib prosesi tamamlayacağıq.

***- 1992-ci ildə ABŞ konqresində 907-ci düzəliş oldu. Həmin düzəlişdə Azərbaycanın Ermənistanı blokadaya alması ilə bağlı ittihamı var. Hansı ki, həmin illər işğalçı Ermənistan Azərbaycana qarşı soyqırım, təcavüz həyata keçirmişdi. Bu sənədin ləğvi ilə bağlı Azərbaycan tərəfi beynəlxalq müstəvidə iddia qaldırmağı düşünürmü?***

- Amerika o sənədlə bizə ianə verməkdən imtina etdi. O vaxt SSRİ digər sosializm dövlətləri dağılmışdı. Ayrı-ayrı ölkələrdə yeni quruluş yaranırdı. Düzəliş də ona görə idi ki, çətin duruma düşmüş ayrı-ayrı dövlətlərə kömək etsinlər. O zaman buna ehtiyacımız var idi, amma indi yoxdur. Ola bilsin, Bayden siyasi hakimiyyətə gələnə qədər ermənilərin səsini almaq üçün çox pafoslu düşüncələr, fikirlər səsləndirib. İndi hakimiyyətə gəldikdən sonra, artıq onun düşüncələrində erməni marağı yox, region, Qafqaz marağı var. Qafqaz da tək erməninin deyil. Düzdür, orada konqresə, konqresmenlərə təsir etmək üçün güclü erməni lobbiçliyi var. Bu o demək deyil ki, dünya onlardan ibarətdir. Bizim də türkümüz var, silahımız var. Ona görə də mən bu məsələlərdə çox nikbinəm və istərdim ki, xalqımız da, camaatımız da nikbin olsun. Prezidentimiz İlaxır çərşənbəni gedib Qarabağda keçirdi, Şuşada-Cıdır düzündə Bayram tonqalı qaladı. Bu o mesajdır ki, mən ən müqəddəs bayramımı da Qarabağda keçirdirəm. İnşAllah Qarabağ bərpa olunacaq, bütün söz-söhbətlərə nöqtə qoyulacaq. Mən bunu təskinlik üçün demirəm, buna tam əminəm.

Bir qədər əvvəl yuxumuza da girməzdi ki, biz belə sürətlə, bu cürətlə düşmənin başını əzə biləcəyik. Tanrının və dövlət başçımızın iradəsi, qətiyyəti, şücaəti, diplomatik gedişləri, ideoloji cəbhədəki mübarizəsi və ordumuzun gücü, qüdrəti bizi bu qələbəyə gətirib çıxardı. İndi siyasi sabitliyimiz var, ordumuz güclənir, ölkənin vahid baş komandanlığı var. Prezidentimiz dünya dövlətləri başçılarının sırasında ən ucada dayanır. Qoy bugünkü vəziyyətdən ermənilər narahat olsunlar. Bundan sonra Ermənistanın işğalla bağlı sözləri ölmüş adam haqqında ballada ola bilər.

***- Fəzail müəllim, ABŞ Konqresində, Avropada, Rusiyadan Azərbaycana qarşı edilən bir sıra çıxışların önündə erməni güclərinin, lobbiçilərinin, diasporasının milyonçularının dayandığı faktdır. Niyə Azərbaycanın xaricdəki "yumşaq gücü" öz ölkəsinin təhlükəsizliyinin təmin olunması üçün kənardan müdafiə ehkamları qura bilmir?***

- 1991-ci ildən hesablasaq, müstəqilliyimizin 30 yaşı var. Diasporamız da gəncdir. Hələ 1918-ci il cümhuriyyət dövründə Azərbaycanın bir vəkil tutub Amerikada təbliğat aparması üçün pulu yox idi. Azərbaycan cümhuriyyətinin varlığını təbliğ etmək üçün 50 min dollara zorla vəkil tutmuşdular. Amma o zaman Amerikada Müstəqil Erməni Dövləti Qurumu yaradılmışdı və onlar Ermənistanı təbliğ edirdilər. Görün neçə illər keçib... Yəni bu gün 70 yaşlı püxtələşmiş adamı, 20 yaşlı gənclə müqayisə etmək olmaz. Digər tərəfdən, sizə bunların Azərbaycandan bir fərqli cəhətini deyim: 1965-ci ildə Xruşşovdan sonra Brejnevin hakimiyyətə gəlməsindən istifadə edib, Ermənistanda genosidlə bağlı abidə qoydular. Erməni təzə dil açan uşağını ora gəzdirməyə aparır. Uşaq soruşur bu nədir, ata deyir genosid abidəsi. Uşaq soruşanda genosid nədir. Deyir, türklər bizi qırıb. Orada demir ki, Azərbaycan, Orta Asiya, Anadolu, deyir, türklər qırıb, genosid edib. Uşağın beyninə gedən ilk siqnal bu olur ki, türk mənim düşməndir. Ermənilər uşaqlarını qisasçı, terrorçu böyüdürlər. O öz millətini sevməlidir, amma başqa millətlərə qarşı nifrət etməməlidir. Azərbaycan heç vaxt başqa millətə qarşı əks-təbliğat aparmır. Bayaq dediyimiz o erməni lobbiləri də bunların o genetik kodunu daşıyanlardır.

Bizim atdığımız addımlara baxın, ermənilərin etdiyi vəhşiliyə baxın. Başımızın üstündə Tanrı var, bir də vicdanımız təmizdir ki, heç bir millətə nə xəyanət, nə təcavüz etmişik. Tanrı bizə möhtəşəm lider yetirib.

44 günlük müharibə dövründə onun bütün potensialı üzə çıxdı. Məlum oldu ki, millətin xilaskarı kimi Tanrı onu bu millətə bəxş etdi. Belə güclü lideri olan dövlətin darıxmağa, xəyanət etməyə, Avropanın ağuşuna sığınmağa, özgə pulu ilə yallanıb Azərbaycana qarşı söz deməyə ixtiyarı olmamalıdır. Həyat sübut elədi ki, Vətən Müharibəsinin qələbəsini təmin edən amillər - Prezidentin qətiyyəti, iradəsi, dövlətin ordusu, qeyrətli Azərbaycan gəncləri, əsgərləri və xalqdır. Xalq dövlət liderinin ətrafında birləşdi. Vətən müharibəsində 50 siyasi partiya hər şeyi kənara atdı. Xalqın monolit birliyi dünyaya nümunə oldu. Dövlət, millət sevgisi, millətin özünüdərki, ən əsası isə millətin dövlət başçısına sevgisi idi.

***- 1991-2021-ci illər üzrə 30 illik dövrü təhlil etsək görərik ki, Ermənistandakı hakimiyyətlər daim azərbaycanlı mülki əhalini hərbi hədəf kimi seçib. 1992-ci ildə Qaradağlıda, Xocalıda, Ağdabanda, Ballıqayada, 1993-cü ildə Başlıbeldə, 2020-ci ildə Gəncədə, Bərdədə, Tərtərdə və digər ərazilərdə törətdiyi cinayətlər onların hansı xarakterini ortaya qoyur?***

- Bunlar faşist Njdeyə heykəl qoyurlarsa, artıq bu, erməni kimliyini sübut edir. Xocalı soyqırımını törədənlərdən nə gözləmək olar?! Faşistpərəst, faşist Ermənistanın faşist ordusu Hitlerin etdiyi əməlləri təkrarladı. Azərbaycan bunu edə bilməz. Azərbaycan erməni kimi qaniçən genetik kodu daşımır. Biz təkcə yaxın 30 ilə nəzər salırıq.

1918-ci il Mart soyqırımını bilənlər ermənilərin son illər törətdiyi bu vəhşiliyə təəccüblənməz. Repressiyaya məruz qalanlar buna

> *"Ermənistanın işğalla bağlı sözləri ölmüş adam haqqında balladaya bənzəyir*

təəccüblənməz. Bu, erməni xisləti, əxlaqıdır. Azərbaycanın mülki ermənilərə, əsir götürülmüş erməni qadınına sərgilədiyi humanist münasibət bəllidir. Ermənilər isə bizim əsirlikdə olanlarımıza zülm edirlər. Bu gün ermənilər tünd sirkədir. Tünd sirkə isə öz qabını çatladar. Bu qələbədə qalib olduq, başımızı dik tutmuşuq, qürurumuz özümüzə qayıdıb. Himnimizi oxuyurduq, sonra da fikirləşirdim ki, "Səndən ötrü qan tökməyə cümlə hazırıq, səndən ötrü can verməyə cümlə qadirk"sə, axı niyə bunu eləmirik? İndi o himni oxumağa haqqımız var. Qan da tökdük, can da verdik, hüququndan keçən əsgər hərə bir qəhrəman oldu. Ruhları şad olsun. Vətən Müharibəsindəki qələbəmiz, dövlət başçısının həyata keçirdiyi bu qalib müharibə bizi ucalığa gətirib çıxardı. Qoy Tanrı bizi həmişə ucalarda saxlasın. Tarixin bütün keçməkeşlərindən keçən, əzilməyən, əzilən üzülməyən, mayeyə çevirmək istəyərkən bərkiyən, qul etmək istəyəndə öz azadlığı uğrunda savaşan bu xalqı Tanqı qorusun! Qalib ölkənin Novruz Bayramı mübarəkdir!

✍ **Tahirə**



**■ Vətən müharibəsində ağır yaralanan daha 27 qazi "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib. Fonddan hafta.az-a verilən məlumata görə, "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək.**

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir. Xatırladaq ki, Fond bundan öncə 24 qazi müalicə üçün Türkiyəyə göndərmişdi. Onlardan 4-nün müalicə proseduru artıq uğurla yekunlaşıb və onlar Vətənə qayıdıblar.



**■ İşğaldan azad edilmiş ərazilərdə partlamamış silah-sursatların aşkar edilməsi məqsədilə profilaktiki tədbirlər davam etdirilir. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat zidmətinin Bərdə regional qrupundan bildirilib.**

Məlumata görə, Şuşa Rayon Polis Şöbəsi əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının Dövlət Təhlükəsizlik Xidmətinin aidiyyəti qurumları ilə birgə keçirdikləri növbəti tədbirlər zamanı Şuşa şəhəri ərazisindən 1 ədəd pulemyot, 5 ədəd avtomat, 1 ədəd qumbaraatan, 31 ədəd müxtəlif növ qumbara, 14 ədəd müxtəlif növ mərmi, 18 ədəd avtomat darağı, 2628 ədəd müxtəlif çaplı patron və digər silah-sursatlar aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.



**■ Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət - profilaktik tədbirləri davam etdirir.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, aparılan tədbirlərlə martın 27-də və 28-də Hacıqabul və Zaqatala Rayon Polis şöbələrinin əməkdaşları tərəfindən həmin rayonlar ərazisində 2 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, onların yaşayış yerlərini tərk etdikləri müəyyən olunub.



**■ İspaniya millisi dünya çempionatlarının seçmə oyunlarında iki rekorda imza atıb. Gürcüstana 2:1 hesabı ilə qalib gələn pireneylilər məğlubiyyətsiz oyunlar seriyasını 65-ə çatdırıb.**

Luis Enrikenin yetirmələri bununla da öz rekordunu yeniləyiblər. Bu matçlarda ispaniyalılar 51 qələbə qazanıb və 14 heç-heçə edib. Bu seriya 1993-cü ildə başlayıb. 28 il öncə martda keçirilən qarşılaşmada İspaniya millisi sonuncu dəfə Danimarkaya uduzub - 0:1. Pireneylilər həm də son 37 oyunda meydanı qolsuz tərk etməyib. Bu da dünya çempionatlarının seçmə mərhələlərində yeni rekorddur. İspaniya Almaniyanın göstəricisini arxada qoyub. Bundestim 1934-85-ci illərdə 36 matçda qol vurmağı bacarıb.



**■ Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların çoxu maliyyə hesabatını təqdim etməyib. Aprelin 1-də siyasi partiyaların Mərkəzi Seçki Komissiyasına (MSK) 2020-ci il üzrə maliyyə hesabatı təqdim etmələri üçün nəzərdə tutulan müddət başa çatsa da dövlət qeydiyyatına alınan 62 siyasi partiyadan 7-si illik maliyyə hesabatını MSK-ya təqdim edib.**

Qeyd edək ki, qanunvericiliyə əsasən, siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə aprelin 1-dən gec olmayaraq MSK-ya təqdim etməlidir. Bu ilin əvvəlindən indiyədək dövlət qeydiyyatına alınan 62 siyasi partiyadan 7-si illik maliyyə hesabatını MSK-ya təqdim edib.



**■ Gürcüstanda növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı məsələ bağlanıb. Ölkədə növbədənkənar parlament seçkiləri keçirilməyəcək. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili martın 29-da jurnalistlərə müsahibəsində söyləyib.**

Onun sözlərinə görə, 2020-ci il oktyabrın 31-də ölkədə ədalətli, şəffaf və azad seçkilər keçirilib. ATƏT və digər beynəlxalq təşkilatlar, aparıcı dövlətlər həmin seçkilərin demokratik keçirildiyini təsdiqləyib və Gürcüstan hökumətini bu münasibətlə təbrik edib. Ona görə də ölkədə növbədənkənar parlament seçkiləri olmayacaq. Bu məsələyə dair söhbətlər başa çatıb. Qeyd edək ki, Gürcüstanda 5 ay əvvəl keçirilən parlament seçkilərində hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası qalib gəlib.

## Problem

***Dünən səhər saatlarında paytaxt sakinləri "MilliÖn" ödəniş terminalları vasitəsilə "Bakı kart" balansını artırmaqda çətinliklər yaşayıb. Həmin terminalların quraşdırılması və texniki dəstəyi ilə məşğul olan "Komtec" şirkətindən bildiriblər ki, "MilliÖn" ödəniş terminallarındakı "BakıKart" sistemində yeniliklərin tətbiqi ilə bağlı işlər aparılır. Şirkətdən qeyd olunub ki, uyğunlaşdırma işləri başa çatdıqdan sonra vətəndaşlar yenidən "BakıKart"ın balansını "MilliÖn" terminallarından doldura biləcək. Hafta.az vətəndaşların haqlı narazılıqlarını nəzərə alaraq mövzu ilə bağlı araşdırma apardı.***




# Sərnişinləri "MilliÖn" terminalları önündə gözləyən "sürpriz"

■ İlk olaraq nəzərimizi Bakı Nəqliyyat Agentliyinə (BNA) yönəltdik. BNA-nın mətbuat katibi Mais Ağayev bildirdi ki, hazırda paytaxt ərazisində kifayət qədər ödəmə terminalı var. Bu gün BakıKartın paytaxt ərazisində metro stansiyalarında 146 ödəmə terminalı mövcuddur. Metronun fəaliyyət göstərməməsinə baxmayaraq, bu terminallardan günboyu istifadə etmək mümkündür. Bundan başqa, təxminən, 50-dən artıq avtobus dayanacağında BakıKarta məxsus, 200-ə yaxın dayanacaqda isə "MilliÖn"ə məxsus ödəniş terminalı var.

"Şəhərkənarı ərazilərdə də artıq BakuBusa məxsus avtobuslar fəaliyyət göstərir. Kart vasitəsilə gedişhaqqı ödənildiyi belə ərazilərdə isə hamının tanıdığı yerlərdə, xüsusən də 24 saat fəaliyyət göstərən dükanlarda pos-terminallar qoyulub. Onların da mövcudluğu ilə bağlı dükanların önündə məlumat lövhələri vurulub. Sərnişinlərimizə tövsiyə edərdik ki, BakıKartla davranışda bir qədər planlı olsunlar. Belə olan halda özlərini də çətinə salmazlar. Əgər sərnişin ictimai nəqliyyatdan gündəlik istifadə edirsə, yaxşı olardı ki, 5-10 günlük balansı artırardılar. Bu zaman hər dayanacaqda ödəniş terminalı axtarmaq üçün də vaxt sərf etməyə ehtiyac qalmır".

Ödəniş terminallarında yaranan nasazlıqlara gəldikdə isə qurum rəsmisi söylədi ki, belə bir məlumat daxil olduğu zaman MilliÖn və BakıKart şirkətlərinə məlumat göndəririk. Texniki nasazlıqların arada qaldırılmasına hər iki şirkət özü nəzarət edir. Bundan başqa, M.Ağayev agentliyin çoxdandır, BakıKarta onlayn ödəniş etmə imkanı yaratması xəbərinə də münasibət bildirdi: "BakıKart-lara onlayn şəkildə ödəniş etmək imkanı yaratmaq fikrimiz var. Bir çox sahələrdə olduğu kimi, bu istiqamətdə də görülən işlərdə müəyyən gecikmələr var. Səbəb də pandemiyadır. Tərəfdaş olduğumuz şirkət xaricidir. Onun əməkdaşlarının gəlib-getməsində məhdudiyyətlər var. Biz onlarla mümkün qədər virtual formada işimizi aparırıq. İşin ləngiməsinin digər mühüm səbəbi metroda sərnişindaşımanın dayandırılmasıdır. Hazırda BNA diqqəti daha çox avtobuslarda fasiləsiz sərnişindaşımaya yönəldib". Son olaraq mətbuat katibi ölkədə kart sistemi ilə fəaliyyət göstərən marşrut sayının rəsmi statistikasını da açıqladı. Belə ki, 2020-ci il ərzində 478 avtobusa nağdsız ödəniş sistemi tətbiq olunub. Bu da təxminən 43 marşrut xətti deməkdir:

## "BakıKart"ın balansını artırmaq mümkün olmadı



**Mais Ağayev,**
Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi

> *Sərnişinlərimizə tövsiyə edərdik ki, BakıKartla davranışda bir qədər planlı olsunlar. Belə olan halda özlərini də çətinə salmazlar*

"Ümumilikdə, son 5 ilin statistikasına nəzər salsaq, 1000-dən artıq avtobusda nəğdsiz ödəniş tətbiq edilib. Bu gün istismarda olan avtobusların 48%-də nağdsız ödəniş sistemi mövcuddur. Bu göstəricilər son 5 ildə, təxminən, 34% artıb. Gündəlik olaraq 590 minə yaxın sərnişin kart vasitəsilə ödəniş edərək sərnişindaşımadan yararlanır. Nağdsız ödəməyə keçid, istismarda olan avtobusların dövriyyəsinin 48%-nin şəffaflaşdırılmasına gətirib çıxarmışdır".

■ **Ardınca isə yaranmış problemi və həlli yollarını nəqliyyat eksperti Aslan Əsədov ilə birgə müzakirə etdik. Ekspert hazırda Bakı Nəqliyyat Agentliyinin (BNA) işini uğurlu hesab etdiyini bildirdi. Yaranmış narahatlıqların isə tədricən aradan qaldırılacağını düşünür:** "Nağdsız ödəniş sisteminə keçid sərnişinlər üçün xeyli üstünlük yaradır. Yeni texnologiyaların tətbiqi hər zaman müəyyən vaxt tələb edib. Ödəniş zamanı yaranan problemlər daha çox internet şəbəkəsinin zəifliyindən asılı olur. Bilirik ki, ödəniş terminallarının birbaşa olaraq internetə çıxışı olmalıdır.

Digər narazılıq isə aparatların azlığından qaynaqlanır. Mütəmadi olaraq dövlət, şəhər nəqliyyat sisteminə çox böyük investisiya ayırırır. Onun tətbiqi, formalaşması yenə də zamanla bağlıdır. Ödəniş terminalları istismara veriləndə daha çox əhalinin sıx olduğu ərazilərdə tətbiq olundu. İndi şəhərətrafı ərazilərdə ödəniş terminallarının azlığı müşahidə olunur. Güman edirəm, belə problemlər yaxın zamanlarda öz həllini tapar. Şəxsi müşahidəmə əsasən onu deyə bilərəm ki, şəhər mərkəzində fəaliyyət göstərən marşrut xətlərinin 90%-i kart sistemi ilə fəaliyyət göstərir. Burada problem şəhərətrafı ərazilər üzrə hərəkət edən marşrut sistemlərindədir. Nəzərə alsaq ki, hazırda sərnişindaşımada "BakuBas" və digər özəl şirkətlər fəaliyyət göstərir, bu zaman həmin şirkətlərin kart sisteminə keçidi iki yolla - dövlət hesabına yaxud şəxsi maliyyə vəsaiti əsasında baş tutur".

A.Əsədovun sözlərinə görə, hazırda pandemiya olmasaydı, bu tip məsələlər də narahatlıq doğurmazdı. Bundan başqa, paytaxt ərazisində sərnişindaşımada yaranmış bütün problemlərin kökündə dayanan əsas məsələ metronun fəaliyyətinin dayandırılmasıdır: "Sadalanan problemlərin həlli zaman tələb edir. Ümidvaram ki, BNA ödəniş sistemində yaranan narahatlıqları yaxın zamanlarda aradan qaldıracaq. Son olaraq onu da vurğulayım ki, hazırda paytaxt ərazisində sərnişindaşımada yaranmış narahatlıqların başlıca səbəbi metronun fəaliyyət göstərməməsidir. Ümumiyyətlə, Bakıda sərnişindaşıma, demək olar ki, 3 əsas sistem - metro, avtobus və taksi üzərində qurulub. Bizdə şəhər nəqliyyatı şaxələnməyib. Buna görə də sıxlıq yaranan kimi, bir sıra problem ortaya çıxır. Metronun bir vaqonunun tutumu 5 avtobus sərnişini daşımağa qadirdir. Bunu da nəzərə alsaq, onda 5 dəqiqəlik interval üzrə hərəkət edən bir metro 20-25 marşrutun sərnişinini daşıyır. Metronun yenidən fəaliyyəti yaranmış problemlərin həllində ən real çıxış yoludur.



**Aslan Əsədov,**
nəqliyyat eksperti

> *Təklif etmişdim ki, metro açılsın və sərnişin içəri nəzarət əsasında buraxılsın. Hər halda, metroya nəzarət marşrutdan daha rahatdır*

Təklif etmişdim ki, metro açılsın və sərnişin içəri nəzarət əsasında buraxılsın. Hər halda, metroya nəzarət marşrutdan daha rahatdır". Məlumat üçün diqqətinizə çatdıraq ki, son olaraq 19 oktyabr tarixindən etibarən, Bakı Metropoliteni öz fəaliyyətini dayandırıb. Ardınca BNA Tədbirlər Planı hazırladı və sərnişin sıxlığı ilə əlaqədar xəttə çıxan avtobusların sayı artırıldı. Ümid edirik ki, şəhərdaxili sərnişindaşımada yaranmış bütün narahatlıqlar tezliklə öz həllini tapacaq.

✍ **Banu**

# Böyük ümidlərin bəsləndiyi COVAX proqramının iflası

## Təhlil

***Bir ildən çoxdur ki, dünya koronavirusa qarşı mübarizə aparır. Ötən müddətdə bu bəladan qurtulmağın tək çarəsi - peyvənd də tapıldı. Peyvəndin də hazırlanması, təsdiqi ardınca isə satışı özü ilə birlikdə yeni problemləri gündəmə gətirmiş oldu.***




İndi dünyada vaksinasiya olunmuş milyonlarla əhalinin 90%-i 10 inkişaf etmiş ölkənin payına düşür. Axı bu qlobal pandemiyadır, çıxış yolu isə bütün dünyanın peyvənddən istifadə etməsidir. Diqqətinizə çatdıraq ki, Azərbaycan peyvənd təminatı ilə məşğul beynəlxalq COVAX proqramının üzvü olan ilk ölkələrdən biridir. COVAX Azərbaycana verdiyi vədə əməl etmir. Bu ilin birinci rübündə satın alınmalı olan peyvəndlər hələ yola salınmayıb. Üstəlik, göndəriləcək peyvənd sayı vəd olunandan qat-qat aşağıdır. Bəs görəsən, əsas prinsipi ədalətli bölgü olan COVAX proqramı ölkəmiz üçün bu ədalətsizliyi hansı səbəblərdən edir? Hafta.az əməkdaşı mövzunun müzakirəsini mütəxəssislərin ixtiyarına buraxdı.

■ **İlk olaraq həmsöhbətimiz tibb elmləri doktoru, professor Aqil Qeybulla oldu. Onun sözlərinə görə, dünyanın qlobal bəlası olan Covid-19 ilə mübarizədə bu tip halların yaşanması yolverilməzdir. Necə ola bilər ki, bir ölkə tələb olunandan çox peyvənd alır, başqa biri isə ümumiyyətlə vaksin əldə edə bilmir:**

> *Hazırda dünyada vaksinlərin ədalətli bölgüsü yoxdur*

"Bizdə əhalinin immunizasiyası başlanılıb. Bu baxımdan Azərbaycan Cənubi Qafqazda ilk ölkədir. İşin təşkili bir qədər ləng gedir. Ola bilsin, vaksin çatışmazlığı da var. Hər halda, biz COVAX platformasında vaksin əldə etməli idik. Pulu belə ödənilmişdi. Təəssüflər olsun ki, bizə vaksini vaxtında vermədilər. Baxmayaraq ki, Gürcüstana artıq ikinci partiya peyvənd göndərilib. Hazırda dünyada vaksinlərin ədalətli bölgüsü yoxdur. Düzdür, biz qardaş ölkə Türkiyənin köməkliyi ilə Çindən peyvənd alışını həyata keçirə bildik. Proses ləngimədən əhalinin vaksinasiyasına başlanıldı. Ədalətsiz bölgü pandemiya ilə mübarizənin də əleyhinədir. Bəzi ölkələr var, misal üçün, Kanada normadan artıq vaksin alıb. Necə olur ki, ölkənin biri lazımından çox peyvənd əldə edə bilir, digərinə isə vaksin verilmir? Heç peyvənd ala bilməyən ölkələr belə var. Onları da Ümumdünya Səhiyyə Təşkilatı humanitar yolla təmin etməlidir. Pandemiya qlobal bir problemdir, onun həlli də kompleks şəkildə həyata keçirilməlidir". Professor ölkəmizin peyvəndlə təminatında yaranmış maneələrin səbəblərinə də münasibət bildridi:



**Aqil Qeybulla,**
tibb elmləri doktoru, professor

"Açığını deyim, fikrimcə baş verənlər Azərbaycana özəl, siyasi bir yanaşmadır. Necə olur ki, Gürcüstana vaksin verilir, biz pul ödədiyimiz halda göndərilmir? Pandemiya məsələsində heç bir siyasi, iqtisadi yanaşmalar olmamalıdır. Onunla mübarizə ayrı-ayrı ölkələrin işi deyil". Mütəxəssisin fikrincə, ölkəyə yeni peyvəndlər gətiriləcəyi halda, əhalinin digər təbəqəsini də təcili vaksinasiya etmək lazımdır. Pandemiyanın üçüncü dalğası proqnoz edildiyindən daha təhlükəli və ağır fəsadlarla nəticələnə bilər: "Bizdə hələlik yarım milyon peyvənd olunmuş əhali var, say olduqca azdır. İngiltərədə artıq 20 milyondan çox insan peyvənd edilib. Hesab edirəm ki, bu bəlanın qarşısını almaq üçün heç olmasa, əhalinin 2/3-si vaksinasiya edilməlidir. Proqnozlar belə özünü doğrultmur.

3-cü dalğa çox kəskin şəkildə özünü göstərir. Xeyli sayda ölən var. Xəstəlik sürətlə yayılır. İndi məşhur infeksionistlərin verdiyi proqnozlar düz çıxmır. Pandemiyanın qarşısını almaq üçün ən effektiv yol kütləvi vaksinasiyadan keçir".

■ **Ölkəmizə verilməli olan peyvəndlərin ləngiməsi məsələsinin iqtisadi problem olub-olmaması da sual doğuran digər məqamdır. Elə bu səbəbdən də mövzunun müzakirəsini iqtisadçı ekspert Natiq Cəfərli ilə davam etdirdik.** O bildirdi ki, peyvənd məsələsi dünyadakı ədalətsizliyi bir daha gündəmə gətirdi. Beləcə, nüfuzlu ölkələr öz əhalisinin peyvəndə olan çıxış imkanlarını daha da sürətləndirdi: "Bu gün dünyada elə ölkələr var ki, onlar prosesdən kənarda qalıb. Burada, təbii ki, əsas səbəb iqtisadi deyil. Azərbaycan tərəfi müqavilələrdə göstərilən öhdəlikləri yerinə yetirməkdə heç bir problem yaşamır.



**Natiq Cəfərli,**
iqtisadçı ekspert

Maneə yaradan məqam ilkin olaraq növbədir. Hazırda dünyada vaksin istehsalı olduqca ləngdir. Gündəlik istehsal həcmi aşağıdır. İnkişaf etmiş ölkələr də öz nüfuzlarından və təsir mexanizmlərindən istifadə edərək, həmin vaksinləri vətəndaşları üçün sifariş edir.

> *Digər inkişaf etməkdə olan ölkələr arasında Azərbaycan bu baxımdan yaxşı vəziyyətdədir*

Digər inkişaf etməkdə olan ölkələr arasında Azərbaycan bu baxımdan yaxşı vəziyyətdədir. Bəzi dövlətlər, ümumiyyətlə, vaksinə çıxış əldə edə bilməyib. Bu da dünyada "vaksin millətçiliyi" adı altında yeni bir terminin yaranmasına səbəb olub". Ekspert bir məqamı da vurğuladı ki, istənilən iqtisadi münasibətlərdə müqavilə öhdəlikləri çox vacib şərtlərdən biridir. Hazırda ölkəmiz maliyyə baxımından heç bir problem yaşamır:

"Resurslar var və hökumət ondan istifadə etməyə israrlıdır. Əlimizdə pul ola-ola biz vaksinə çıxış əldə edə bilmiriksə, ya da müqavilədə göstəriləndən daha az peyvənd verilirsə, bu o deməkdir ki, COVAX proqramının iş prinsipinə nüfuzlu ölkələrin təsiri var. Bu da dünyada ədalətsizliyin ən bariz göstəricilərindən biridir". Qeyd edək ki, bu gün dünyada "peyvənd savaşları" tək nüfuzlu ölkələr və yoxsul ölkələr arasında baş vermir. Eyni zamanda, Avropa Birliyi (AB) və İngiltərə də öz istehsal etdikləri peyvəndləri paylaşa bilmirlər. Bundan başqa, hazırda AB-in 27 ölkəsi ədalətsiz vaksin bölgüsündən şikayətlənir.

✍ **Banu**

# Ramazan ayının başlayacağı tarix açıqlanıb

**Azərbaycanda Ramazan ayının başlanma tarixi açıqlanıb. Qafqaz Müsəlmanları İdarəsindən hafta.az-a verilən məlumata görə, Azərbaycanda Ramazan ayının ilk günü aprelin 13-ə düşəcək.**

Qeyd olunub ki, Azərbaycan Astrofizika Rəsədxanasının verdiyi məlumata görə, Ramazan ayının ilk günü aprelin 13-nə təsadüf edəcək. QMİ-dən əlavə olunub ki, bəzi ölkələrdə Ramazan ayı aprelin 14-də, çox ölkələrdə isə aprelin 13-də başlayacaq.

# Koronavirus necə yayıldı?



**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ koronavirusun insana keçməsi ilə bağlı yekun hesabatını hazırlayıb.**

Hesabatın rəsmi versiyası yaxın günlərdə ictimaiyyətə təqdim olunacaq.

Hesabatda SARS-CoV-2 virusunun insana yoluxmasının 4 mümkün ssenarisi təqdim olunub. Belə ki, koronavirusun yarasadan digər növün vasitəsilə insana keçməsi "böyük ehtimal" kimi nəzərə alınıb. Yarasadan birbaşa insana keçid ssenarisi ikincidərəcəli ehtimal qəbul olunub. Bununla belə, qida məhsullarından yoluxma nəzəriyyəsi "kiçik ehtimal" kimi təqdim olunub. Nəhayət, bu virusun laboratoriyadan sızması "çox az ehtimal" olunub. Qeyd edək ki, yeni növ koronavirusun yaranması və insanlara keçməsinin araşdırılması üçün ÜST-ün bir qrup eksperti yanvarın 14-dən fevralın 9-dək Çinin Uhan şəhərində araşdırmalar aparıb.

# Bu il Həcc ziyarəti olacaq?!

**Bu il Həcc ziyarətinin baş tutub-tutmayacağı ilə bağlı Səudiyyə Ərəbistanı tərəfindən hələ ki məlumat verilməyib. Bunu Trend-ə Qafqaz Müsəlmanları İdarəsindən bildiriblər.**



Bildirilib ki, Həcc ziyarətinin təşkilinə başlanılması üçün Səudiyyə Ərəbistanından bildiriş gəlməlidir, yəni ziyarətin keçirilib-keçirilməyəcəyi barədə dəqiq məlumat verilməlidir: "Hələ ki bu bildiriş gəlməyib. Azərbaycandan getmək istəyənlər var və əgər razılıq verilərsə, müraciətlər toplanılacaq. Səudiyyə Ərəbistanı tərəfindən yaxın günlərdə razılıq gəlsə, vaxt baxımından ziyarəti təşkil etmək mümkündür. Bildiriş aprelin axırına doğru gəlsə, vaxta görə zyarətin təşkil edilməsini çatdırmaq mümkün olmayacaq".

## Sosial



**Lalə Allahverdiyeva,**
Səhiyyə Nazirliyinin baş allerqoloqu

# Allergik xəstəliklər peyvəndlənmə üçün əks-göstəriş deyil



***Allergiyadan əziyyət çəkən xəstələr COVID-19-un inkişaf etməsinə görə risk qrupuna daxil deyil. Hafta.az-ın məlumatına görə, bunu Səhiyyə Nazirliyinin baş allerqoloqu Lalə Allahverdiyeva deyib.***

O bildirib ki, belə xəstələrin tənəffüs yollarının hüceyrələrində AÇF2 (angiotenzin çevirici ferment-2) geninin ekspressiyasının azalması müşahidə olunur: "Lakin ağırdərəcəli, nəzarət olunmayan bronxial astmalı və COVID-19-un geniş yayılmasına görə yüksək risk qrupunda olan xəstələr istisna təşkil edirlər. Virus xəstəlikləri və COVID-19 allergiyanın simptomlarını ağırlaşdıra bilər. Bu, respirator allergiya - bronxial astma, allergik rinitlər və pollinoz olan xəstələrə aiddir. Virus iltihablaşmış selikli qişadan asanlıqla orqanizmə daxil olur və xəstədə allergiyanın gedişini ağırlaşdırır. Digər klinik mənzərə də ola bilər. Məsələn, xəstə bronxial astmanın remissiya mərhələsində idi, lakin koronavirus infeksiyasına yoluxdu. İnfeksiya tənəffüs yollarının selikli qişasının virusmənşəli iltihabına səbəb oldu. Allergenlərin zədələnmiş selikli qişadan keçməsi artır və biz beləcə allergik iltihabın kəskinləşməsini izləyə bilərik". L.Allahverdiyeva bildirib ki, respirator allergiyanın (atopik bronxial astma, allergik rinit, pollinoz) və koronavirus infeksiyasının simptomları həqiqətən də çox oxşardır:

"Bu simptomlar aşağıdakılardır: tənəffüsün çətinləşməsi, təngnəfəslik, öskürək, rinoreya, asqırma, burun və boğazda qaşınma, qıcıqlanma, gözlərdə qaşınma. Əgər bu simptomlara yüksək hərarət, başağrısı və boğazda ağrı, ümumi halsızlıq və mialgiya, quru öskürək, iy və dadbilmənin itirilməsi də qoşularsa, onda mütləq həkimə müraciət etmək və COVID-19-a görə müayinədən keçmək lazımdır.

> *Allergik xəstəliyin kəskinləşməsi peyvəndlənmənin aparılmasına müvəqqəti əks göstərişdir*

Antihistamin preparatlar allergik xəstəlikləri olan xəstələrin immun sistemini heç bir şəkildə zəiflədə bilməz. Koronavirus infeksiyasının və COVID-19 pnevmoniyasının müalicəsində antiviral preparatlar, antibiotiklər, antikoaqulyantlar, hormonlar, vitaminlər istifadə olunur. Bütün bu preparatlar allergiyası olan xəstələrdə koronavirus infeksiyası zamanı toksikodermiya və ya övrə şəklində təzahür edən dərman allergiyasına səbəb ola bilər. Belə xəstələrə eyni zamanda çox sayda dərmanları ehtiyatla təyin etmək lazımdır. Bu, xüsusilə də antibiotik və vitaminlərə aiddir.

Allergik xəstəliklər peyvəndlənmə, o cümlədən də COVID-19 əleyhinə peyvəndləmə üçün əks-göstəriş deyil. İstənilən peyvəndləmə üçün əsas əks göstəriş xəstəliyin kəskinləşməsi və nəzarətə alınmayan gedişinin olmasıdır".

Baş allerqoloq peyvəndlənməyə mütləq əks-göstəriş əvvəllər yeridilmiş digər peyvənd və ya zərdablara qarşı allergik reaksiyaların, peyvəndin tərkibinə daxil olan komponentlərə qarşı ağır sistem və anafilaktik reaksiyaların olmasıdır: "Peyvəndlər və ya inyeksiya şəklində olan dərman preparatları ilə bağlı olmayan digər allergik reaksiyalar COVID-19 əleyhinə peyvəndlənmənin aparılmasına əks-göstəriş deyil.

Allergik xəstəliyin kəskinləşməsi peyvəndlənmənin aparılmasına müvəqqəti əks göstərişdir. Xəstəliyin kəskin əlamətlərini aradan qaldırmaq və remissiya dövründə peyvəndlənmək lazımdır".

✍ Banu



**"Bir neçə gün əvvəl ABŞ-ın Kubaya qarşı iqtisadi, ticarət və maliyyə blokadasına son qoymağı tələb etmək üçün vətəndaşlar və Kuba ilə dostluq təşkilatlarının 5 qitədə birgə həyata keçirdikləri tədbirlər dünya gündəmində öz yerini tutub".**

# Azərbaycan xalqı Kubaya olan sevgi körpüsünə qoşulur

Bu sözlər Kubanın ölkəmizdəki səfirliyindən hafta.az-a daxil olan, xalq rəssamı, Azərbaycan Respublikasının əməkdar rəssamı Arif Hüseynovun qələmə aldığı məlumatda deyilir. Bildirilir ki, bir ay öncə "Europa por Cuba" kanalının təşəbbüsü ilə başlayaraq planetin müxtəlif yerlərindən olan hərəkatlar və həmrəylik qrupları ilə razılaşdırılmış müxtəlif tədbirlər həyata keçirilir. "Azadlıq adasını həmişə dəstəkləyən Azərbaycan xalqı olaraq Kuba xalqına qarşı tətbiq edilən soyqırım blokadasını rədd etdiyimizi bir daha bildirir və bu qlobal karvana qoşuluruq", - məqalədə qeyd olunur.

Daha sonra məqalədə deyilir ki, "Biz, Kuba xalqının dostları, bu qlobal karvanın Vaşinqtonun Karib ölkəsinə 60 ildən çox davam edən cinayətkar siyasətinin qüvvədə qaldığı müddətdə davam edəcək təzahürlərin yalnız başlanğıcı olduğunu təkrarlayırıq.

A.Hüseynov yazır ki, mühasirəni qınadığımızı deyəndə, həmrəylik göstərən və pandemiya dövründə başqalarına kömək etməkdə çox fəal xalqa qarşı təcavüzün təzahürü olan haqsızlığı vurğulayırıq. "Cəsarətli Kuba xalqı ilə tam razıyıq ki, bu blokada Kubanın inkişafına ən böyük maneədir və insan haqlarının pozulmasının təzahürüdür. Kubanın BMT Baş Assambleyasına may ayında təqdim edəcəyi hesabatda qeyd olunduğu kimi, altı onillik ərzində dəymiş ümumi ziyan 144 milyon 413 min dollar təşkil edir və 2019-cu ilin aprelindən 2020-ci ilin martına qədər 5 milyon dollardan çox itkiyə səbəb olub",- məqalədə yazılır.

Xalq rəssamının yazdığına görə, artıq 29-cu dəfədir, beynəlxalq təşkilat bu praktikanın dayandırılması barədə bəyanatla çıxış edəcək və bu da birtərəfli olmadan əlavə, Antil adaları xalqı ilə olan əlaqələrinə görə üçüncü ölkələrə təsir etdiyi və cəzalandırdığı üçün ekstraterritorial xarakter daşıyır.

"Azərbaycan xalqı bu Beynəlxalq Karvana və Kubaya olan sevgi körpüsünə qoşulur: mühasirəyə və insan ləyaqətinə qarşı", - məqalənin sonunda qeyd olunur.

✍ Vüsal

# Vaksin vurduranlara "SMS icazə" tətbiq olunmaya bilər



**Sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunarsa, vaksinləşmə prosesinin hər iki mərhələsini başa çatdırmış şəxslərə güzəştlər tətbiq olunacağı gözlənilir. Vaksinləşmə prosesinin hər iki mərhələsini yekunlaşdıranlara "SMS icazə" və digər hərəkət məhdudiyyətləri tətbiq olunmaya bilər.**

Hafta.az xəbər verir ki, bu barədə məlumatı APA tibbi mənbələrə istinadən yayıb. Məlumata görə, koronavirusa yoluxma sayındakı kəskin artımlar yenidən karantin rejiminin sərtləşdirilməsini aktuallaşdırır. Belə vəziyyətdə isə vaksinləşmə prosesinin hər iki mərhələsini həyata keçirənlərə məhdudiyyət tətbiq olunmaması müzakirə edilir.

Qeyd edək ki, Prezidentin köməkçisi Şahmar Mövsümov bir müddət əvvəl vaksinləşmə prosesini tam keçmiş vətəndaşlara güzəştlərin tətbiq edilməsinin müzakirə olunduğunu qeyd etmişdi.

Xatırladaq ki, əvvəlcə Azərbaycanda 50 yaş üzəri şəxslərin vaksinləşmə prosesi başladılıb. Hazırda hökumət 40 yaş üzəri şəxslərin vaksinləşmə prosesindən istifadə edə biləcəyini açıqlayıb. Vaksinləşmə vətəndaşlar üçün pulsuzdur. Azərbaycan dövləti bu proses üçün Çinin "Sinovac Biotech" şirkətinin istehsalı olan 4 milyon ədəd "CoronaVac" vaksinini ölkəyə gətirib.

# Bitkoin 400 min dollara qədər bahalaşa bilər

**"Bloomberg İntelligence" araşdırma şirkətinin analitiki Mayk Makqloun bitkoinin builki qiyməti ilə bağlı proqnozlarını açıqlayıb.**

Onun sözlərinə görə, kriptovalyutanın qiyməti 400 min ABŞ dollarına qədər bahalaşa bilər. Mütəxəssis, mövcud bazarın vəziyyətini bitkoinin rekord məbləğdə satıldığı 2013 və 2017-ci illərdəki iqtisadi vəziyyətlə müqayisə edib: "Fikrimizcə 2021-ci ildə bir sıçrayış, bitkoini risksiz aktivə çevirə bilər". Qeyd edək ki, hazırda ən geniş yayılmış kriptovalyuta 56 388 ABŞ dollarına satılıb.

# "Apple" "Samsung"a cərimə ödəyəcək




***ABŞ-ın "Apple" korporasiyası "OLED" panellərin tədarükünə dair müqavilənin pozulmasına görə "Samsung" şirkətinə cərimə ödəyəcək.***

Sahə üzrə anonim icmalçıların bildirdiyinə görə, "Apple" şirkəti smartfonlar üçün tədarük edilən "OLED" panellərin alınmamasına görə "Samsung Display" korporasiyasına cərimə ödəyəcək. Şirkətlər arasında müqaviləyə görə, ABŞ IT nəhəngi müəyyən sayda "OLED" ekranların satın alınmasına görə üzərinə öhdəlik götürüb. Bu tələb yerinə yetirilmədiyi halda sifarişçi icraçıya cərimə ödəməlidir.

Məlumata görə, "Apple" şirkəti "iPhone 12 mini" smartfonunun istehsal tempinin azalması səbəbindən lazımi sayda komponent hissələr almaqdan imtina edib. Blogerlərin əvvəlki məlumatına görə, "Apple" şirkəti 2020-ci ilin ən ucuz qabaqcıl modelinin aşağı satış həcmindən məyus olub və qurğunu istehsaldan çıxarmağa hazırlaşır. Problemlər, həmçinin "Samsung" tərəfindən tədarük edilən "OLED" panellərin 5,4 düym diaqonallı olması və "12 mini" modelindən başqa digər qurğularda istifadə edilə bilməməsi ilə əlaqədardır. Bundan başqa, "Apple" tərəfindən öhdəliklərin pozulmasına görə "Samsung Display" korporasiyasının "OLED" panellərinin tədarük həcmi bir ay ərzində 9 faiz azalıb.

Anonim mənbə jurnalistlərə deyib ki, "Apple" şirkətinin "Samsung Display" korporasiyasına cərimə ödəyəcəyi məlum deyil, lakin kontraktlar tarixçəsi və "iPhone 12 mini" modelinin pis satışları nəzərə alınsa, bu, inandırıcı görünür. Kompensasiyanın məbləği açıqlanmır.

# "Nar"ın dəstəyi ilə keçirilən onlayn şahmat seriyası başa çatdı



***"Nar"ın dəstəyi ilə chess.az saytının keçirdiyi "Karabakh is Azerbaijan" onlayn şahmat seriyası başa çatıb.***

Böyük finala vəsiqə qazanmış ən yaxşı 10 şahmatçı arasında gedən mübarizədə Elnur Mehtiyev birinci yerin qalibi olub. İkinci və üçüncü yerlərin sahibləri isə müvafiq olaraq İsmayıl Qurbanov və Şəhriyar Rəhmanov olub. İlk üç yeri tutmuş şahmatçılar "Nar" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, iki aydır davam edən seriyada Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna və Hindistandan ümumilikdə 264 şahmatçı iştirak edib. 8 turnirdən və böyük finaldan ibarət seriyada turnirlərin hər biri Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş rayonların adını daşıyıb. Seriya lichess.org şahmat platforması üzərindən keçirilib.

# XIX əsrə aid unikal sənət əsəri: Ərçiman xalçası



**Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda bütün xalça məktəblərinə aid 720 ədəd xalça və xalça məmulatı mühafizə olunur. Muzeydən hafta.az-a bildirilib ki, bunlardan Şirvan xalçaçılıq məktəbinə aid olan "Ərçiman" xalçası XIX əsrin sonunda Xızıda toxunub.**

Üzərində təsvir olunan süjeti və ornamentləri ilə unikal sənət əsəri təsiri bağışlayır. Bu xalçanın qədim çeşnidən toxunan süjeti başqa xalçalarda təkrar olunmayıb. Xalçadakı süjet və naxışlar bütövlükdə xalqımızın ailə məişəti ilə bağlı adət-ənənələrini, mifik dünyagörüşünü əks etdirir. Mütəxəssislərin fikrincə, onun üzərində qıvrıq xətlərlə qədim türklərin insanlara ilahi qüvvə bəxş edən xoşniyyət ilahəsi Humayın təsviri verilib. Humayın təsviri xalçanın haşiyələrində toxunmuş butalarda olduğu kimi nurla əhatə edilib. Butanın belə işıqsaçan, yəni nurlu formasına çox nadir hallarda rast gəlinir. Xalçanın mərkəzi qədim türklərdə ailə birliyini, ailə bağını ifadə edən andlaşmanı, qardaşlaşmanı bildirən "and damğası" ilə haşiyələnib. And damğasının bu xalçada toxunması təsadüfü olmayıb, onun hansısa əhd-peymanla bağlı olduğunu ifadə edir. Xalça üzərində məşhur Aşşur silindrlərində olan ağaclara bənzər təsvirlər də var. Türkbaf üsulu ilə toxunmuş "Ərçiman" xalçasının ölçüləri 154 x 157 santimetrdir.

## GÜNÜN FOTOSU



**Alabamada tornadodan geriyə qalanlar...**

# Gender mədəniyyəti

**Əliməmməd Nuriyev,**
hüquqşünas

Hazırda gender məsələləri üzrə məsul şəxslər demək olar ki, bütün hökumət strukturlarında və Azərbaycanın bütün rayonlarının icra hakimiyyəti orqanlarında fəaliyyət göstərirlər.

▸▸ Səh. 4

## STATİSTİKA



■ Dünyada ən böyük balıq balina köpəkbalığıdır. Zərərsiz olan bu balığın uzunluğu 18 metr, çəkisi isə 25 tona çatır.

■ Dünyada ən sürətli balıq yelkən balığıdır. Onun sürəti saatda 100 kilometrə çatır. Ən asta üzər balıqlar isə dəniz atları sayılır.

■ Uçan balıqlar suyun üzərində 50 metr məsafədə hərəkət edə bilir. Bəzən bir tullanışın 200 metrə çatdığı da qeydə alınıb. Onların sudan maksimum hündürlüyə tullanış məsafəsi isə 5-6 metr təşkil edir.




▸▸ Səh. 7

# Sərnişinləri "MilliÖn" terminalları önündə gözləyən "sürpriz"